

**Vergidən yayınanların yeni üsulu**

Səhifə 8-də



**Subsidiyalar artırıldı, bəs məhsuldarlıq?**

Səhifə 11-də



**Yeni Günəşlinin abad olmayan həyəti**

Səhifə 12-də



**Səsyazma studiyası axtarışında**

Səhifə 15-də



**SOCAR və "Tatneft" əməkdaşlıq edəcəklər**

Səhifə 10-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

4 NOYABR ŞƏNBƏ 2023 | 42 (4143)

Qiyməti - 40 qəpik

www.kaspi.az






## ENERJİNİ ÖZÜMÜZ İSTEHSAL EDƏCƏYİK

İnsanlar elektrik enerjisi istehsal edib sata biləcəklər. Söhbət bərpa olunan enerjidən gedir. Ekspertlər isə bunun biznes yox, sadəcə insanların enerji xərclərini azaltmağa hesablanmış layihə olduğunu söyləyirlər.

SƏHİFƏ 6-da



## NEFT SEKTORUNDAN VERGİ DAXİLOLMASI AZALIR

Səbəb qaz qiymətlərinin azalması, "Azəri-Çıraq-Günəşli"də hasilatın azalmasıdır. Yaranmış boşluğun aradan qaldırılması üçün gələn il ARDNF-dən büdcəyə transfertin miqdarı 1 milyard manat artırılacaq.

SƏHİFƏ 10-da



## BİŞİRİLMƏSİ ASAN, İSTİFADƏSİ RİSKLİ

Alıcılar yarım-fabrikatların doğru saxlanılmasına diqqət etməlidirlər. Donu açılmış və bir neçə dəfə dondurulmuş məhsullarda mütləq deformasiya olur və alıcılar bunu məhsulun xarici görünüşündən anlaya bilərlər.

SƏHİFƏ 13-də

### TÜRK DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏR AZƏRBAYCAN ÜÇÜN ƏSAS PRİORİTETLƏRDƏNDİR



# ASTANADA QARDAŞLIQ ZİRVƏSİ

Türk dövlətlərinin rəhbərləri Astanada yenidən bir araya gəliblər. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələri təhlükəsizlik, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığı daha da artırmağa səsləyib.

**BİRGƏ SƏRMAYƏ FONDLARI YARADILIR**

İqtisadi sahədə əməkdaşlıqdan danışan Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox investisiya yatırıb. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir: "Birgə sərmayə fondlarının yaradılması prosesi başlamışdır".

**BÖYÜK QAYIDIŞ PROQRAMINI İCRA EDİRİK**

Prezidentin sözlərinə görə, üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başlayıb. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən yeddi milyard ABŞ dolları həcmində vəsait sərf edilib.

SƏHİFƏ 2-DƏ

### ÇOXDANDIR HƏLLİNİ GÖZLƏYƏN PROBLEM

# ÇIXARIŞ GÖZLƏYƏN MƏNZİLLƏR

Hazırda ölkədə 1700 yaşayış binası var ki, onlardan 400-ə yaxını istismardan keçməyib. Bunun da müxtəlif səbəbləri var.

Əsas problemlər binanın layihə sənədlərində çatışmazlıqlar, tikinti işlərinin düzgün aparılmaması ilə bağlıdır.

SƏHİFƏ 7-də





## SÜLH SAATININ ƏQRƏBİ BAKINI GÖSTƏRİR

Artıq Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması üçün düyməyə basıb. Sülh saatının əqrəbi nə Qərbi, nə də Şərqi göstərir. Əqrəbin işarə etdiyi əsas istiqamət elə Cənubi Qafqazdır.

SƏHİFƏ 3-də



## ERMƏNİSTAN FRANSAYA GÖRƏ TƏPİKLƏNİR

Fransanın Ermənistana ciddi şəkildə nüfuz etməsi İrəvanda Nikol Paşinyan hökumətinin növbəti uğuru kimi təqdim edilsə də, artıq bu münasibətin ciddi fəsadları üzə çıxmağa başlayıb.

SƏHİFƏ 4-də



## GÖBƏLƏK YARADAN SU QABLARI

Saxlanma şəraiti pozularsa, yararlılıq müddəti keçərsə, həmin su qablarının istifadəsinə icazə verilməməlidir. Əks təqdirdə, uşaqlar üçün ciddi fəsadlar və valideynlər üçün əsaslı problemlər yarana bilər.

SƏHİFƏ 14-də

## 5800 QEYRİ-İXTİSASLI MÜƏLLİM



Bağçalarda tərbiyəçi-müəllimlərin işə götürülməsi ilə orada çalışan qeyri-ixtisas sahibi olanlar əvəzlənəcək. Tərbiyəçi-müəllimlər bütün tədris prosesinə cavabdeh olacaqlar.

SƏHİFƏ 9-da

## ÜÇÜNCÜ DÜNYA MÜHARİBƏSİ ANONSLARI



Dünya liderləri Üçüncü Dünya müharibəsi təhlükəsindən açıq danışmağa başlayıblar. BMT Baş katibi Antonio Quterreşin sözlərinə görə, dünyada toplam 13 min 400 nüvə başlığı var və bu, nüvə müharibəsi ehtimalını artırır.

SƏHİFƏ 5-də

## "REAL"IN YENİ TAPINTISI




Bəzi mütəxəssislər Cud Bellinqemi oyun stilinə görə əfsanəvi Zidanla müqayisə edirlər. Bellinqem də Zidan kimi beş nömrəli formanı geyinir. Rəqəmlərə görə isə Bellinqem artıq indidən daha effektiv olmağı bacarır.

SƏHİFƏ 16-da



## İlham Əliyev Rəcəb Tayyib Ərdoğanla görüşüb

Noyabrın 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.
AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərinin uğurla başa çatması məmnunluqla vurğulanıb.
Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını Xankəndi və Xocalı şəhərlərində Azərbaycan Bayrağını ucaltması münasibətilə təbrik edib.
Söhbət zamanı Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley görüşünün ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi qeyd olunub.
Görüşdə ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirilib, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## "Sədərək"dəki sıxlığın səbəbləri açıqlanıb

Azərbaycanın Türkiyə ilə sərhəddə yerləşən "Sədərək" gömrük postunda nisbi sıxlığın yaranmasına səbəb ölkəmizdən tranzit keçməklə İrandan Türkiyəyə gedən yük nəqliyyat vasitələrinin sayının artmasıdır.
"Report" xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsi sosial şəbəkələrdə və bir sıra kütləvi informasiya vasitələrində "Sədərək" gömrük postunda yük nəqliyyat vasitələrinin sıxlığının yaranması və sürücülərdən qeyri-qanuni vəsaitlərin tələb olunması ilə bağlı yayılan məlumatlara aydınlıq gətirərkən bildirib.
Komitənin məlumatında qeyd edilib ki, hazırda "Sədərək" gömrük postu vasitəsilə qarşı tərəfin də buraxılış qabiliyyəti nəzərə alınmaqla, gündəlik 480 yük nəqliyyat vasitəsinin keçidi təmin edilir: "Sürücülərdən qeyri-qanuni vəsaitlərin yığılması ilə bağlı iddialar ümumiyyətlə həqiqətə uyğun deyil, böhtan xarakteri daşıyır".

# ASTANADA QARDAŞLIQ ZİRVƏSİ



**Türk dövlətlərinin rəhbərləri yenidən bir araya gəliblər. Bu dəfə Astanada. Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələri təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığı daha da artırmağa səsləyib.**

Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü keçirilib.
Prezident İlham Əliyev tədbirdə iştirak edib. Dövlət başçısı Zirvə görüşündə çıxış edib.

### SON İKİ İLDƏ 20 SƏFƏR

Azərbaycanın türkdilli ölkələrlə əməkdaşlığına toxunan Prezident deyib ki, Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir: "Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir. Son iki il ərzində mən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər etmişəm. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər".

### BİRGƏ SƏRMAYƏ FONDLARI YARADILIR

İqtisadi sahədə əməkdaşlıqdan da danışan Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox investisiya yatırıb. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir: "Birgə sərmayə fondlarının yaradılması prosesi başlamışdır. Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu yaradıldı. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artmışdır. Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir".



### MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ DAHA DA ARTMALIDIR

Prezident həmçinin bildirib ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır. Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir: "Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır".
30 illik işğalın aradan qaldırılması istiqamətində zirvə görüşünün iştirakçılarını bir daha məlumatlandıran dövlət başçısı deyib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı döyüş meydanında məğlubiyyətə uğradıb və ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib: "2023-cü il sentyabrın 19-da işğaldan azad edilmiş torpaqlarımızda qanunsuz erməni silahlı birləşmələri tərəfindən qəsdən yerləşdirilmiş minaların partlaması altı mülki şəxsin və polis əməkdaşının həyatına son qoydu. Bundan sonra Azərbaycan konstitusiya quruluşunun bərpası və qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. 23 saat ərzində bitən əməliyyat nəticəsində Azərbaycan özünün suverenliyini və konstitusiya quruluşunu tam bərpa etdi. Antiterror tədbirləri nəticəsində mülki insanlara və mülki infrastruktura heç bir ziyan dəymədi. Azərbaycan beynəlxalq humanitar hüquqa tam riayət etdi. Bölgəyə iki dəfə səfər edən BMT missiyası bu faktları təsdiq etmişdir".

### "BİZ BÖYÜK QAYIDIŞ PROQRAMINI İCRA EDİRİK"

Prezidentin sözlərinə görə, üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başlayıb. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən yeddi milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur. "Biz Böyük Qayıdış Proqramını icra edirik", - Prezident deyib. Onun sözlərinə görə, artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıblar. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur. "Biz böyük Türk dünyasının bir hissəsiyik", - dövlət başçısı çıxışının sonunda vurğulayıb.
Daha sonra Astana aktı və Astana Zirvə görüşünün Bəyannaməsi imzalanıb.

## İRƏVAN YENİ REALLIQLARI QƏBUL ETMƏYƏ MƏHKUMDUR

# SÜLH SAATININ ƏQRƏBİ BAKINI GÖSTƏRİR

Artıq Azərbaycan düyməyə basıb. Sülh saatının əqrəbi nə Qərbi, nə də Şərqi göstərir. Əqrəbin işarə etdiyi əsas istiqamət elə Cənubi Qafqazdır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Qranada, Bişkek və Brüsseldə planlaşdırılan danışıqların baş tutmaması Azərbaycan və Ermənistan arasında sülh prosesinə dair nikbin proqnozları bir müddət arxa plana keçirdi. Lakin son həftələrdə istər İrəvan, istərsə də Bakıdan qısa zamanda "sülh sazişinin imzalanmasının mümkünlüyü" ilə bağlı verilən bəyanatlar siyasi mərkəzləri yenidən hərəkətə gətirib. Bir fakt inkar edilə bilməz ki, hər üç görüşün baş tutmamasının əsas səbəbkarı bölgədə gərginliyin qalmasında maraqlı olan Fransa və onun diqtəsi ilə hərəkət edən Nikol Paşinyan hakimiyyətidir. Belə bir mühitdə sülh moderatorluğuna iddia edən tərəflərin prosesə dair baxışlarının nədən ibarət olduğu, ümumi yanaşmalarda uzlaşma imkanları maraq doğurur.

### Aİ ÜZVLƏRİ FRANSAYA QARŞI

Sirr deyil ki, Rusiyaya qarşı diplomatik qələbə əldə etmək istəyən Brüssel çoxsaylı görüşlərin təşkili ilə bağlı təşəbbüslərinin lazımsız əşya kimi kənara atılmasını istəmir. Lakin burada əsas məsələ Avropa İttifaqına (Aİ) üzv dövlətlərin sülh prosesinə münasibətdə konsensus əldə edə bilib-bilməyəcəyidir. Azərbaycanla ikitərəfli münasibətləri strateji maraqları hesab edən ölkələr Fransanın pozucu fəaliyyətindən ciddi şəkildə narahatdırlar.

### QƏRB İKİNCİ UKRAYNA İSTƏMİR

Cənubi Qafqaz üzrə siyasi ekspert Aleksandr Rarın fikrincə, Fransanın Cənubi Qafqazda fəaliyyəti bu ölkədəki erməni diasporunun nüfuzu amilindən qaynaqlanır: "Artıq müstəqil Fransa və ya müstəqil Almaniya siyasəti yoxdur. Avropa ölkələri arasında müəyyən razılaşma var ki, geosiyasi məsələləri birgə həll etmək lazımdır. Qafqazda baş verənlər isə çox ciddi geosiyasi hadisədir. Buna görə də Fransa Aİ-nin Ermənistan və Azərbaycanla bağlı siyasətini müstəqil şəkildə təşviq edə bilməz. Qərbin Qafqazda təsiri çox azdır. Avropa yeni kütləvi köçə səbəb olacaq ikinci qaynar nöqtə istəmir. Ona görə də o, hər şeyi edəcək ki, Qafqaz Rusiya ilə Qərb arasında ikinci Ukrayna olmasın. Bu gün avropalılar Qafqazda nə edəcəklərini bilmirlər, onların konsepsiyası və resursları yoxdur".

### "AZƏRBAYCANIN ERMƏNİSTANA GÜZƏŞTİ"

"Forbes"in sülh prosesi ilə bağlı yayımladığı analitik material da cərəyan edən hadisələrlə əlaqədar Qərb mərkəzlərindəki siyasi düşüncələrin nədən ibarət olduğunu anlamağa imkan verir. Bildirilir ki, heç kim Azərbaycan və Ermənistan arasında sıx əməkdaşlıq gözləmir. Amma ümid var ki, onlar heç olmasa bir-birilərinə öz ərazilərindən tranzit daşımalara icazə verəcəklər. Burada sülhün əsas şərtlərindən biri kimi kommunikasiyaların açılmasına diqqət çəkilir: "Düzdür, hər yerdə olduğu kimi, bu məsələdə də güclülərin hökmranlığı öz işini gördü. Faktiki olaraq yalnız bir infrastruktur layihəsi - Zəngəzur dəhlizi deyilən layihə müzakirə olundu". Tərəflər arasında fikir ayrılıqlarının detallarına diqqət yetirən məqalədə artıq Bakının İrandan alternativ yol çəkilişini həyata keçirməsinə ayrıca vurğu edilir. Nə qədər qəribə olsa da, bu addım "Azərbaycanın Ermənistana güzəşti" kimi qiymətləndirilir. Paşinyanın Tbilisidəki "sülh yolu" ilə bağlı çıxışındakı detallara toxunan ekspertlər sözdə hər şeyin Ermənistan üçün "çox gözəl" səsləndiyini bildirirlər: "Paşinyanın arzuları o halda reallaşa bilər ki, İrəvan Azərbaycan, Rusiya və Türkiyə tərəfindən bərabərhüquqlu tərəfdaş kimi qəbul edilsin. Lakin, bu, heç də belə deyil".

## ABŞ mövcud sakitlikdən yararlanmaq istəyir

Vaşinqtonun sülh prosesindən gözləntilərini isə "Politiko" nəşri ifadə edir. Qeyd olunur ki, əgər Qərbin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında sülh əldə olunarsa, bu, Rusiyaya ciddi zərbə olacaq. Bu, Vaşinqton və Brüsselin qələbəsi hesab ediləcək. "İndi həm Azərbaycan, həm də Ermənistan yaxın bir neçə ay ərzində çoxdan gözlənilən sülh sazişinin bağlana biləcəyini deyirlər", - nəşr yazır. Cənubi Qafqazda özünə qarşı yönələn və birbaşa sülh prosesi ilə bağlı olan təzyiq rıçaqlarını azaltmaq üçün Rusiyanın Qərbin diqqətini Balkanlar, Yaxın Şərq və Afrikadakı münaqişələrə yönəltməyə çalışdığını vurğulayan ekspertlər "sakitliyin hökm sürdüyü mövcud şəraiti nadir məqam" kimi dəyərləndirirlər. "Hazırda həm Ermənistan, həm də Azərbaycan nikbindir", - "Politiko" yazır.

### ERMƏNİSTANIN SON ŞANSI

Göründüyü kimi, Paşinyan çıxılmaz duruma düşüb. Onun Rusiya ilə qarşıdurmada "xilaskar" obrazında gördüyü Qərbin özündə belə, Ermənistanın danışıqlar prosesindəki mövqeyinin çox zəif olduğunu qəbul edirlər. Aparıcı beyin mərkəzlərinin tribunası sayılan media orqanları, ekspertlər vasitəsi ilə bu yanaşma İrəvanın diqqətinə çatdırılır. Bölgədə onun heç də bərabərhüquqlu tərəfdaş kimi qəbul edilməyəcəyi söylənilir. Əslində, son üç ildə Azərbaycanın hərbi və diplomatik hücumları nəticəsində darmadağın edilən Ermənistanın Paşinyanın timsalında irəli sürdüyü "sülh şərtləri"nin bölgədəki mövcud reallıqlarla uzlaşmadığını İrəvan hakimiyyəti özü də anlayır. Dövlət olaraq inkişafın yalnız Azərbaycanla sülh sazişindən keçdiyini, bu prosesin də gec-tez İrəvanın "istəkləri" ilə yox, rəsmi Bakının şərtləri və tələbləri əsasında reallaşacağını gözəl anlayırlar. Artıq Bakı düyməyə basıb. Sülh saatının əqrəbi nə Qərbi, nə də Şərqi göstərir. Əqrəbin işarə etdiyi əsas istiqamət elə Cənubi Qafqazdır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az



# Ermənistan Fransaya görə təpiklənir

Fransanın Ermənistana ciddi şəkildə nüfuz etməsi İrəvanda Nikol Paşinyan hökumətinin növbəti uğuru kimi təqdim edilsə də, artıq bu münasibətin ciddi fəsadları üzə çıxmağa başlayıb. Rəsmi Parisin ekspansionist siyasəti Ermənistanı regionda təcrid vəziyyətinə salmaq üzrədir.

**F.ABBASOĞLU**

Fransa uzun müddətdir Rusiyanı Cənubi Qafqazda regiondan sıxışdırıb çıxarmaq istəyini Ermənistanla "dost, müttəfiq" pərdəsi arxasında gizlədir. İstər Ermənistan-Azərbaycan sülh danışıqlarını sabotaj etmək, silah alveri, istərsə də Avropa İttifaqı müşahidə missiyasında diktədici rola sahib olmaq cəhdi nə Rusiya ilə İranın, nə də Azərbaycanla Türkiyənin nəzərindən yayınır. Məsələ burasındadır ki, Qərbin bütün planlarına həvəslə "hə" deyən Paşinyan çanağın Ermənistanın başında çatlamasından bixəbər kimi görünür.

### FRANSA ÖZ MARAQLARI ÜÇÜN SÜLH DANIŞIQLARINI SABOTAJ EDİR

Fransa Qərb platformasında keçirilən danışıqlarda tərəfsizliyini qoruya bilmədiyi üçün Azərbaycanın sərt mövqeyi ilə üzləşib. Vasitəçi kimi neytrallığını qorumalı olan Paris tərəfkeşlik edir, Ermənistanı qızışdıraraq diplomatik qalmaqala səbəb olur. Sırf bu səbəbdən Azərbaycan tərəfi Qranada görüşündən imtina edib. Brüssel görüşü də alınmayıb. Qısacası, Fransanın danışıqlarda tərəfkeşliyi və erməni havadarlığı Azərbaycanın səbir kasasını doldurub və Bakı Qərb platformasının artıq effektiv olmadığına işarə edir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev artıq tərəflər arasında ikitərəfli görüşlərin daha effektiv olacağını vurğulayıb. Danışıqların Fransa tərəfindən sabotaj edilməsi həm Rusiyanın qəzəblənməsinə, həm sülh müqaviləsinin imzalanmasına, həm də regionun inkişafına mənfi təsir göstərir. İqtisadiyyatı can üstündə olan Ermənistana isə qısa müddətə sülh müqaviləsini imzalamaq, regiondakı nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasına kömək etmək, Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq hava və su kimi vacibdir.



### "İRƏVAN SİLAHLARIN PULUNU NECƏ ÖDƏYƏCƏK?"

Fransa Ermənistana hərbi sahədə dəstək göstərməyi də öhdəsinə götürüb. Bu yaxınlarda Ermənistanın müdafiə naziri Suren Papikyanın Parisə səfəri tərəflər arasında müqavilə imzalanması ilə başa çatıb. Müqaviləyə əsasən, Fransa Ermənistana üç ədəd "GM200" radarı və "ZPK Mistral" sistemi satmaqla yanaşı, xüsusi təyinatlıların hazırlanmasında peşəkar kömək edəcəyini də boynuna götürüb. Müqavilədən də görünür ki, irihəcmli silah alverindən söhbət getmir və məsələ rəsmi Paris tərəfindən siyasiləşdirilib. Müqavilənin altında isə Rusiyanı regiondan qovmaq, öz silahlarını bölgə ölkələrinə tanıtmaq məqsədi gizlənib. Makronun Ermənistanı lazım olan silah-sursatla təmin etməyəcəyi gün kimi aydındır. Çünki hələ Suren Papikyan Parisdə olanda "Le Monde" qəzetində "İrəvan silahların pulunu necə ödəyəcək?" başlıqlı məqalə dərc edilmişdi.

### RUSİYA ERMƏNİSTANI REGİONAL LAYİHƏLƏRDƏN ÇIXARIR

Təbii ki, Ermənistanın yuxarıda sadalanan və hər biri əsasən Rusiyaya qarşı hesablanmış addımlarına Kreml seyrçi qala bilməzdi. Suren Papikyanın Parisdə imzaladığı müqavilənin mürəkkəbi qurumamış Moskvadan Ermənistanın arzularına etiraz ifadə olunub. Rusiya baş nazirinin müavini Aleksey Overçuk bildirib ki, Ermənistan hazırda Şimal-Cənub dəhlizinin bir hissəsi deyil. Rəsmi İrəvan Meğridən keçən yolun tikintisi ilə bağlı dəqiq cavab verməyib və Azərbaycanla İran Ermənistandan yan keçməklə Araz çayının cənub sahili boyunca uzanacaq avtomobil yolunun tikintisinə başlayıblar. Eyni istiqamətdə dəmir yolunun da tikintisi planlaşdırılır. Overçukun açıqlaması bir neçə ildir hər fürsətdə Şimal-Cənub dəhlizi layihəsindən danışan Paşinyanın planlarını suya salıb. Görünən odur ki, 30 il əvvəl olduğu kimi, bu dəfə də Ermənistan regiondakı beynəlxalq layihələrdən uzaq qalmaq təhlükəsilə üz-üzədir.

### KREMLİN SİYAHISINDA ERMƏNİSTANIN ADI YOXDUR

Fransa ilə qol-boyun olmağın fəsadları bununla da bitmir. Bir neçə gün əvvəl Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri vəzifəsini icra edən Ruslan Davıdov maraqlı açıqlama verib. Rusiyalı rəsmi qeyd edib ki, Azərbaycanla "Sadələşdirilmiş Gömrük Dəhlizi" layihəsi həyata keçiriləcək. Sözügedən layihə Azərbaycandan başqa İran, Suriya, Özbəkistan, Türkiyə və Çinlə reallaşdırılacaq. Bu siyahıda Ermənistanın adı yoxdur. Rusiyanın dost ölkələrlə bağlanmış beynəlxalq müqavilələr çərçivəsində yüklərin daşınmasının sürətləndirilməsi üçün nəzərdə tutulan ən perspektivli layihələr sırasında "Sadələşdirilmiş Gömrük Dəhlizi" layihəsi xüsusi yer tutur.

Göründüyü kimi, Fransanın qucağında oturmaqla Ermənistan əslində öz quyusunu qazır. Yuxarıda sadalananlar hələ ki, Rusiyanın ilk cavab tədbirləridir. Rəsmi Moskvanın Ermənistanla bağlı başqa planlarının da olacağı şübhəsizdir. Belədə, Ermənistanın bu məngənədən qurtulmaq üçün yeganə çıxış yolu Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqdır.



# ÜÇÜNCÜ DÜNYA MÜHARİBƏSİ ANONSLARDA

Artıq dünya liderləri, nüfuzlu beyin mərkəzləri hesabatlarında Üçüncü Dünya müharibəsi təhlükəsindən açıq danışmağa başlayıblar. BMT baş katibi Antonio Quterreşin sözlərinə görə, dünyada toplam 13 min 400 nüvə başlığı var və bu, nüvə müharibəsi ehtimalını artırır.



AZƏR NURİYEV

Rusiya ilə Ukrayna arasında iki ilə yaxındır davam edən nəticəsiz müharibə, eləcə də Yaxın Şərqdə HƏMAS-la İsrail arasındakı hərbi əməliyyatlar dünya düzənini dəyişib. Fövqəldövlətlər arasında gərginlik, qütbləşmə dərinləşib. Artıq dünya liderləri, nüfuzlu beyin mərkəzləri hesabatlarında Üçüncü Dünya müharibəsi (buna nüvə müharibəsi də deyirlər) təhlükəsindən açıq danışmağa başlayıblar.

### SİYASİ LİDERLƏRDƏN XƏBƏRDARLIQ

Bir neçə xarici dövlətin rəhbərləri ard-arda elan ediblər ki, Üçüncü Dünya müharibəsinin başlamasına az qalıb. Məsələn, Belarus Prezidenti Aleksandr Lukaşenko bəyan edib ki, Üçüncü Dünya müharibəsi Yaxın Şərqdə başlaya bilər və bu gün hər şey buna doğru gedir. Oxşar nöqteyi-nəzəri KXDR rəhbəri Kim Çen İn də ifadə edib. O bildirib ki, "biz hazırda Üçüncü Dünya müharibəsinin başlanmasına hazır olmalıyıq".

Hətta Roma Papası Fransisk də deyib ki, dünya nüvə müharibəsinin astanasındadır. "Dünyamız hissə-hissə aparılan Üçüncü Dünya müharibəsinin məngənəsində qalmaqda davam edir. Ukraynadakı münaqişənin faciəvi vəziyyətində nüvə silahından istifadə təhlükəsi qalmaqdadır. İndiki vəziyyət bizə 1962-ci ilin oktyabrında Kubadakı raket böhranında olduğu kimi, dünyanın nüvə müharibəsi astanasında olduğunu göstərir. Nüvə silahları olmadan da bir dünya mümkündür və bu, zəruridir", - deyə Papa vurğulayıb.

Bundan əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bildirib ki, İsrail "Fələstin məsələsini" güc yolu ilə həll etməyə çalışarsa, "bütün əlaqəli region və qeyri-regional oyunçular üçün partlayış təhlükəsi yarana bilər".

ABŞ-nin Yaxın Şərqdə müharibəyə girə biləcəyi ehtimalları da yeni müharibəni aktuallaşdırıb. Beləliklə, Üçüncü Dünya müharibəsi və yaxud nüvə müharibəsinin baş vermə ehtimalları hansısa bir ekspert və beyin mərkəzləri tərəfindən deyil, konkret liderlər tərəfindən səslənir.





## NÜVƏ TƏHLÜKƏSİ ARTIR

Yeri gəlmişkən, Rusiya-Ukrayna müharibəsi fonunda bir sıra dövlətlər ordusunu gücləndirməyə və hərbi texnika sayını artırmağa qərar veriblər. Müxtəlif dövlətlərin hərbi büdcələri də artır. BMT Baş katibi Antonio Quterreşin sözlərinə görə, dünyada toplam 13 min 400 nüvə başlığı var və bu, nüvə müharibəsi ehtimalını artırır. Əlavə edib ki, nüvə silahının tətbiqi riski "soyuq müharibə"dən bəri görünməmiş səviyyəyə çatıb. O bildirib ki, bu təhlükəni azaltmağın yeganə yolu nüvə silahlarını aradan qaldırmaqdır. A.Quterreş dünya ictimaiyyətini bu məsələdə həmrəyliyə çağırıb. Xüsusilə Rusiyanın Ukraynaya qarşı apardığı işğalçı müharibə nüvə toqquşması təhlükəsinin miqyasını nümayiş etdirir. Bu çağırışlara baxmayaraq, nüvə silahına malik dövlətlər nüvə arsenallarını daha da artırır. Oktyabr ayında NATO ölkələrinin nüvə təlimləri keçirilib. Rusiyanın müdafiə naziri Sergey Şoyqu da bəyan edib ki, nüvə müharibəsi ehtimalı getdikcə artır. Onun sözlərinə görə, Qərb Rusiya ilə münaqişəni gərginləşdirmək xətti tutub və bu, nüvə gücləri arasında hərbi toqquşmaya səbəb ola bilər.

## RUSİYA FƏRQLİ MÜHARİBƏ OLACAĞINI BƏYAN EDİR, ABŞ İSƏ HƏDƏLƏYİR

Qərblə Rusiya arasında qızğın toqquşma baş verərsə, tamamilə fərqli bir müharibə olacağını Vladimir Putin də bəyan edib. ABŞ Konqresinin həm Rusiya, həm də Çinlə eyni vaxtda müharibəyə, o cümlədən nüvə qarşıdurması variantını nəzərə almaqla hazırlaşmaq tövsiyəsini şərh edən Rusiya prezidenti "biz sülh istəyirik və əgər onlar Rusiya ilə döyüşmək istəyirlərsə, bu, tamam başqa müharibə olacaq", - deyə bildirib. Əlavə edib ki, ağlı başında olan heç bir şəxs nüvə gücləri arasında müharibə ehtimalına yol verməməlidir.

Amerikalı müşahidəçilər hesab edirlər ki, NATO ölkələri taktiki nüvə silahının mümkün istifadəsinə hazırlaşmalıdırlar. ABŞ-nin Çinə diqqətinin yönəldiyi vaxtda nüvə müharibəsi baş verə biləcəyi vurğulanır.

### NATO İLƏ GƏLƏCƏK HİPOTETİK MÜHARİBƏ

Pentaqonun keçmiş yüksək rütbəli məmuru Qreqori Uiver hesab edir ki, Ukraynaya müdaxilənin edildiyi ilk günlərdə rus ordusunun zəif irəliləyişləri NATO-da bəzilərini inandırmışdı ki, alyansın üstünlüyü və adi silahlanma sayəsində rus təcavüzünün qarşısını almaq mümkün olacaq. Amma bu, yanlış təsəvvür idi. "NATO rəhbərliyi başa düşməlidir ki, rus qüvvələrinin Ukraynadakı fəaliyyəti Rusiyanın nüvə silahından asılılığını artıra bilər. NATO ilə gələcək hipotetik müharibədə Rusiya çox güman ki, ya qələbəyə nail olmaq, ya da məğlubiyyətin qarşısını almaq üçün münaqişənin əvvəlində nüvə silahından istifadə etmək ehtiyacını hiss edəcək", - deyə ekspert bildirib.

Beləliklə, Üçüncü Dünya və yaxud nüvə müharibəsi ehtimalı artır. Ən təhlükəlisi odur ki, ABŞ və digər Avropa ölkələri münaqişələrin həlli istiqamətində heç bir addım atmırlar. Əksinə, münaqişə ocaqlarının daha da alovlanmasına şərait yaradırlar. Bu həm Yaxın Şərqdə, həm də Ukrayna-Rusiya münaqişəsində özünü göstərir. Dünyada 100-dən artıq münaqişə olduğunu nəzərə alsaq, bu ehtimalın reallığa çevrilmə təhlükəsi gün-bəgün artır.



ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# ENERJİNİ ÖZÜMÜZ İSTEHSAL EDƏCƏYİK

Yeni qərara əsasən, insanlar artıq özləri elektrik enerjisi istehsal edib sata biləcəklər. Söhbət bərpa olunan enerjidən gedir. Ekspertlər isə bunun biznes yox, sadəcə insanların enerji xərclərini azaltmağa hesablanmış layihə olduğunu söyləyirlər.





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda bərpa olunan enerji sahəsində mühüm yenilik baş verib. Belə mənbələrdən enerji əldə edən şəxslər özlərinin istifadə etdiyi həcmdən artıq qalan hissəni dövlətə sata biləcəklər. Yəni əhali günəş paneli quraşdırıb hökumətə elektrik enerjisi satacaq. Maraqlı təşəbbüsdür. Lakin aydın olmayan məqamlar çoxdur. İnsanlar bu işdən nə qədər gəlir əldə edəcəklər? Hansı ərazilər daha rentabeli olacaq?

### ARTIQ ENERJİ TOPDANSATIŞ QİYMƏTİNƏ ALINACAQ

Energetika Nazirliyinin mətbuat katibi Cahid Mikayılov deyir ki, hər kəs bu layihəyə qoşula bilər: "Proses üçün müraciət olunur və şəbəkəyə qoşulur, müqavilə bağlanılır. İstənilən ərazidə hər kəs evinin damına günəş paneli quraşdırıb, yaxud digər kiçik bərpa olunan enerji qurğuları ilə elektrik enerjisi istehsal edib şəbəkə ilə əlaqələndirə bilər. Gündüz istehsal etdiyimiz enerjini şəbəkəyə ötürürük, gecə şəbəkədən alırıq. Bu, enerji satmaq üçün deyil, öz ehtiyacını ödəmək üçündür. Ay sonunda əgər şəbəkəyə çox enerji ötürmüşüksə, növbəti ay həmin enerjini istifadə edirik. Əgər az ötürmüşüksə, daha çox şəbəkədən almışıqsa, pulunu ödəyirik. İlin sonunda şəbəkəyə ötürdüyümüz enerji aldığımızdan daha çoxdursa, onun müqabilində vətəndaşa ödəniş edilir. Adətən bu, cüzi bir miqdar olur. Tarif Şurasının qərarına görə, mövcud topdansatış qiyməti 6,6 qəpikdir".



Cahid Mikayılov

### HANSI ƏRAZİLƏR DAHA RENTABELLİDİR?

C.Mikayılovun sözlərinə görə, bu layihə Azərbaycanın bütün ərazisində keçərlidir: "Günəş radiasiyası Azərbaycanın hər yerində yüksəkdir. Amma Naxçıvanda bir kvadratmetr əraziyə düşən radiasiya daha yüksəkdir. İkinci yerdə işğaldan azad olunmuş ərazilərin cənub hissəsi, məsələn Füzuli, Cəbrayıl, Zəngilan gəlir. Külək enerjisində isə Xəzəryanı ərazilər, Kəlbəcər, Laçın zonasında çox yüksək potensial var. Bu ərazilərdə kiçik qurğularla külək enerjisi istehsal oluna bilər".

## "AZƏRİŞIQ" NƏ QƏDƏR ENERJİ VERİRSƏ, O QƏDƏR ÖTÜRƏ BİLƏRSİNİZ

Enerji məsələləri üzrə ekspert Elçin Tarquluyev deyir ki, insanlar 150 kilovata qədər enerjini heç bir icazə almadan şəbəkəyə ötürə bilərlər: "Aktiv istehlakçı elektrik enerjisi istehlak etməklə yanaşı, bərpa olunan enerji mənbələri hesabına 150 kilovata qədər elektrik enerjisi istehsal edən hüquqi və fiziki şəxslərə deyilir. Onlar kiçik və orta biznes sahibləri və fərdi evlərdir. Hansı ki, aşağı gərginlikli şəbəkəyə qoşulurlar. Kiçik və orta biznes sahibləri texniki şərti birbaşa şəbəkədən alırlar. Fərdi evlərdə isə qoşulma üçün texniki şərtə ehtiyac yoxdur".

E.Tarquluyev bildirdi ki, burada 150 kilovat maksimum həddir: "Hər kəs 150 kilovatlıq stansiya quraşdıra bilməz. Çünki burada texniki şərt məsələsi var. "Azərişıq" maksimum 100 kilovatlıq enerji verirsə, siz də maksimum o qədər ötürə bilərsiniz. Bu da onun üçündür ki, həmin ərazidə "Azərişıq" 100 kilovat gücün təhlükəsizliyinə təminat verə bilir. Yəni daha böyük gücün şəbəkəyə problem yarada biləcəyinə görə risk faktoru nəzərə alınaraq belə bir limit qoyulub".

### ENERJİ NÖVBƏTİ İLƏ ÖTÜRÜLMƏYƏCƏK

Mütəxəssisin sözlərinə görə, artıq qalan enerjini sonra istifadə etmək mümkündür: "Aktiv istehlakçılar üçün yeni ölçmə cihazları qoşulur. Bunlar ikitərəfli cihazlar olur. Hər ayın sonunda əgər sizin şəbəkəyə ötürdüyünüz enerjinin miqdarı şəbəkədən aldığınızdan çoxdursa, geri qalanı sizə kredit olaraq yazılır". E.Tarquluyev qeyd edir ki, əgər ilin sonunda hələ də şəbəkəyə ötürdüyünüz enerji şəbəkədən aldığınızdan çoxdursa, həmin krediti pula çevirə bilirsiniz: "Enerji növbəti ilə ötürülməyəcək. Şəbəkə operatoru bank hesabınıza topdansatış tarifi ilə ödəniş etməlidir. Topdansatış tarifləri də Tarif Şurası tərəfindən tənzimlənir. Ödəniş üçün VÖEN-niz olmalı, fərdi sahibkar kimi qeydiyyatdan keçməlisiniz".



Elçin Tarquluyev

## BU LAYİHƏ BİZNES DEYİL

E.Tarquluyev bildirir ki, bu layihələr insanlara dəstək üçündür: "Bir çoxları bunun biznes ola biləcəyini düşünürlər. Amma bu, biznesdən çox, elektrik enerjisi xərclərinin azaldılması və hətta sıfıra endirilməsi üçün olan bir tətbiqdir. İnsanlara yüksək miqdarda gəlir gətirməyəcək, amma onların xərclərini xeyli azaldacaq. Xərcləri sıfıra endirmək hansı ölçüdə stansiya qurulmasından, evin damından, ərazinin relyefindən asılıdır. Yəni yetərli sayda panel qoya biləcək ərazi varsa, sərfiyyatı sıfıra endirə bilərsiniz. Hətta mənfiyə düşüb kredit kimi də yığılması mümkündür".

Mütəxəssisin fikrincə, bu layihə günəş enerjisində daha uğurlu olacaq: "Çünki külək stansiyaları kiçik ölçüdə çox da rentabelli olmur. Bu daha çox fərdi evlər, kiçik, orta bizneslər üçündür. Bu, bina evlərində alınan ortaq qərarla reallaşdırıla bilər. Lakin reallaşması çətindir. Çünki damların boş olduğunu da düşünmürəm".

E.Tarquluyev qeyd edir ki, layihə paytaxtdan çox rayonlarda rentabelli olacaq: "Bu, hər fərdi evdə də alınmayacaq. Çünki kölgə stansiyaların istehsal gücünü aşağı salır. Məsələn, paytaxtın mərkəzi küçələrinin əksəriyyətində çoxmərtəbəli binalar var ki, onlar problem yaradacaqlar".

### ÖNCƏ HESABAT, SONRA İSTEHSAL

Ekspertin sözlərinə görə, layihə gələn il həyata keçirilə biləcək: "Elektroenergetika haqqında" qanun təsdiqlənsə də, qüvvəyə minməsi 2024-cü ilin yanvarın 1-dən nəzərdə tutulub. Stansiyanın quraşdırılması da uzun müddət tələb edir". E.Tarquluyev deyir ki, artıq bir çox insan bu sahə ilə maraqlanmağa başlayıb. Növbəti bir ildə kiçikölçülü günəş stansiyalarının istehsalı və alışında artım olacaq: "Panel istehsal edən, quraşdıran bir çox özəl şirkət var. Onlar öncə araşdırmalar aparırlar. Evdə hansı ölçülü günəş stansiyası quraşdırmaq mümkündür? Nə qədər enerji istehsal edəcək? Hesabat sizin üçün uyğundursa, günəş panellərini sifariş verirlər və quraşdırırlar. Sonra "Azərişıq" şəbəkəyə qoşur. Günəş paneli quraşdırmaq üçün heç bir quruma müraciət etməyə, icazə almağa ehtiyac yoxdur. Panel quraşdırmağa icazə əvvəldən var idi. Amma istehsal olunan enerji şəbəkəyə ötürülə bilmirdi. İndi bu da mümkün olacaq".



# ÇIXARIŞ GÖZLƏYƏN MƏNZİLLƏR

**Hazırda ölkədə 1700 yaşayış binası var ki, onlardan 400-ə yaxını istismardan keçməyib. Bunun da müxtəlif səbəbləri var. Əsas problemlər tikinti şirkətlərinin vergi borclarının olması, binanın layihə sənədlərində çatışmazlıqlar, tikinti işlərinin düzgün aparılmaması ilə bağlıdır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2023-cü ilin yanvar-sentyabr ayları ərzində ölkədə 373 min 647 daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatı aparılıb. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 43,8 faiz çoxdur. 2023-cü ilin yanvar-sentyabr ayları ərzində mülkiyyət hüququ qeydiyyata alınan əmlaklardan 40 min 205-i fərdi yaşayış və bağ evi, 72 min 566-sı mənzil, 252 min 405-i torpaq sahəsi, 2 min 374-ü qeyri-yaşayış binası, 5 min 487-si qeyri-yaşayış sahəsi, 531-i əmlak kompleksi, 79-u isə çoxmərtəbəli yaşayış binasıdır. Rəqəmlərdən də göründüyü kimi, ən az say yenitikili binaların payına düşür. Yenitikililərlə bağlı bu problem niyə həllini tapmır?

### ƏN ÇOX ÇIXARIŞ 2019-CU İLDƏ VERİLİB

Tikinti məsələləri üzrə ekspert Elnur Azadov "Kaspi" qəzetinə açıqlamasında dedi ki, yenitikililər üçün ən çox çıxarış 2019-cu ildə verilib: "2019-cu ilin əvvəlində ölkə başçısı binaların istismara qəbul olunması ilə bağlı fərman imzalayıb. Burada aktiv iki orqan - Fövqəladə Hallar Nazirliyi və Əmlak Məsələləri Dövlət Xidməti iştirak edirdi. İnşası bitmiş bina Fövqəladə Hallar Nazirliyinin istismar qəbulundan keçəndən sonra mülkiyyət hüquqlarının əldə olunması ilə bağlı müvafiq əmlak xidmətinə müraciət edir. Bununla da, tez bir zamanda sakinlərə çıxarışlar verilir. Həmin ildə 470-ə yaxın bina qeydiyyata alınıb. Bir il ərzində onların 75-80 faizi həmin fərmana uyğun olaraq istismardan keçib. Eyni tendensiya növbəti illərdə də davam edib. Amma bu proses ən çox 2019-cu ildə oldu".

### TƏHLÜKƏLİ OLDUĞU BİLDİRİLSƏ DƏ, SAKİNLƏR YAŞAYIR

E.Azadov bildirdi ki, əgər binaya çıxarış verilmirsə, bunun haqlı səbəbləri var: "Hazırda ölkədə 1700 yaşayış binası var ki, onlardan cəmi 400-ə yaxını istismardan keçməyib. Bunun da müxtəlif səbəbləri var. Ya həmin binalar 2000-ci illərin əvvəllərindən bu günə kimi problemlərlə üzləşib, ya vergi borcları ödənilməyib, ya da binanın layihə sənədlərində çatışmayan hissələr var, tikinti işləri düzgün aparılmayıb, müxtəlif qüsurlar üzə çıxıb. Yaxud binanı tikən şirkətin hüquqi və digər maliyyə problemi olub ki, onların dövlət tərəfindən istismara qəbul olunması riskli hesab olunur və qəbul aktını əldə edə bilmir. Qanunun tələbinə görə bu cür binalarda yaşamaq təhlükəli sayılır. Lakin sakinlər yaşayır".






## PROBLEMİN HƏLLİ YOLU YALNIZ MƏHKƏMƏDİR

Ekspertin fikrincə, bu problemin həlli yolu yalnız məhkəmədir: "Müəyyənləşdirilməlidir ki, burada olan qüsurların aradan qaldırılması mümkündür, yoxsa yox. Əgər həmin binalara layihədən kənaraçıxma varsa, bunlar köklü şəkildə araşdırılmalı, komissiyalar təşkil olunmalı, nöqsanlar dövlət, yerli icra, bələdiyyə, idarəetmə strukturları hesabına aradan qaldırılmalıdır. Risk daşımırsa, məhkəmə yolu və digər qurum, komissiyaların ümumi rəyləri ilə binaların istismara qəbul olunması mümkündür. Amma həmin binalarda risklər varsa, aradan qaldırılması mümkün deyilsə, o binaların saxlanılması və yaşanması təhlükəli sayılırsa, dövlət tərəfindən riskli sayılıb sökülməlidir. Sonra yerində hansısa yeni bina tikə bilərlər. Amma bu, dövlət proqramına daxil olunmalıdır. Burada risk ən çox vətəndaşlar üçündür. Ona görə də dövlət birinci növbədə yaşayış olan təhlükəli binalarda problemi aradan qaldırmağa çalışmalıdır".



2023-CÜ İLİN YANVAR-SENTYABR AYLARI ƏRZİNDƏ MÜLKİYYƏT HÜQUQU QEYDİYYATA ALINAN ƏMLAKLAR

## MTK-LARIN FƏALİYYƏTİ NƏZARƏT ALTINA ALINMALIDIR

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Orucun sözlərinə görə, bu sahədə sərt nəzarət mexanizmi tətbiq olunmalıdır: "Sənəd probleminin həllini tapması üçün həmin binaları təkrar yoxlamadan keçirmək və müvafiq qərarlar vermək lazımdır. İlk növbədə Mənzil Tikinti Kooperativlərinin fəaliyyəti ciddi şəkildə nəzarət altına alınmalıdır. Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tikintinin gedişinə, normativlərə uyğun aparılmasına, lazım olan qaydalara əməl edilməsinə ciddi nəzarət mexanizmi tətbiq etməlidir. Bir çox hallarda yenitikililər elə bir vəziyyətdə inşa olunur ki, sonra çıxarış almaq üçün təhvil-təslim prosesini həll edə bilmirlər. Normativlərə uyğun olmadığına görə, həmin binaları təhvil almaq mümkün olmur. Bu halda da vətəndaşlara çıxarışlar verilmir. Son illərdə atılan addımlar çıxarış alınmasını və hətta çıxarışsız evlərə sənədlərin verilməsi prosesini çox asanlaşdırıb. Hazırda bundan istifadə edə bilməyənlər qanunsuz tikililərdir, hansı ki, yüksək elektrik gərginliyi olan ərazilərdə tikilib, yaxud da tikinti aparılarkən tikinti qaydalarına və normativlərə əməl olunmayıb. Digər bütün hallarda sənədləşmə prosesi qanuni və asan şəkildə həyata keçirilir".

### ÇIXARIŞSIZ MƏNZİLLƏRDƏ YAŞAYANLARLA BAĞLI QƏRAR OLMALIDIR

V.Oruc qeyd etdi ki, yararsız binalarda yaşayan sakinlərlə bağlı müvafiq tədbirlər görülməlidir: "Hazırda sənəd, çıxarış əldə edə bilməyən yenitikililərin sayı o qədər də çox deyil. Onlarda olan problemlər ciddi şəkildə araşdırılmalı, tikinti normativlərinə əməl olunmayıbsa, bu barədə müvafiq ölçülər götürülməlidir. Həmin binada mənzil alan şəxslər şirkətlərin hesabına digər yenitikililərə köçürülməli və yararsız binalarda müvafiq dəyişikliklər aparılmalıdır".


Elnur Azadov
Vüqar Oruc

Kaspi
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev
Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2893
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

“CARD TO CARD” ƏMƏLİYYATLARI AZƏRBAYCANDA FENOMENƏ ÇEVRİLİB

# VERGİDƏN YAYINANLARIN YENİ ÜSULU

**Hər birimizin bank kartları ilə bağlı ən sevdiyimiz üsul “card to card” əməliyyatıdır. Plastik kart əldə etdikdə, ilk maraqlandığımız nüans “kəşbek”in miqdarı və kartdan karta köçürmələr zamanı nə qədər pulun tutulmasıdır. Elə bu sevgimizi bilən banklar da daim bunlarla bağlı kampaniyalar edir, müştərilərini bu üsulla cəlb edirlər. Təsadüfi deyil ki, Vençur fondunun rəhbəri Məmməd Kərim də “card to card” əməliyyatlarının Azərbaycanda fenomenə çevrildiyini bildirib. Şirkət rəsmisinin sözlərinə görə, ölkəmizdə bu əməliyyatların həcmi milyardlara bərabərdir. Maraqlıdır, nə üçün bu əməliyyatlar ölkədə fenomenə çevrilib? Əhali “card to card” əməliyyatından daha çox harada istifadə edir?**

**Son zamanlar ictimai iaşə obyektlərində, mağazalarda ödənişin post-terminalla deyil, kartdan karta köçürülmə vasitəsilə tələb edilməsi halları ilə rastlaşırıq. Mütəxəssislər bu tələbin qanunvericiliyə zidd olduğunu bildirirlər.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

### “CARD TO CARD” ƏMƏLİYYATLARINDAN İSTİFADƏ NORMADAN ARTIQDIR”

İqtisadçı Pünhan Musayev “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, əhalinin bank kartlarına marağı artan sürətlə davam edir. İstifadəçi sayı çoxdur və onlar da ən minimal ödənişlərini belə, kart vasitəsilə edirlər: “Əvvəlki illərə nisbətən kart əməliyyatları, insanların kart sisteminə yaxınlığı artıb. “Card to card” əməliyyatlarından istifadə normadan artıqdır. Səbəbləri müxtəlif ola bilər. Məsələn, ehtimallardan biri odur ki, restoran, kafe və ya mağazada pos-terminal olmadıqda, ödənişi kartdan karta köçürmə vasitəsilə edirik”.

Mütəxəssis deyir ki, “card to card” əməliyyatları valideyn və tələbələr arasında da çox istifadə olunur: “İkinci səbəb əksər ali təhsil müəssisələrinin Bakıda yerləşməsi və burada regiondan gələn minlərlə tələbə kontingentinin təhsil alması ilə izah oluna bilər. Hansı ki, əvvəllər valideynlər övladlarına ay ərzində göndərdikləri pulu poçtla çatdırırdılarsa, hazırda bu, “card to card” yolu ilə həyata keçirilir”.

### BORCLAR VƏ NİSYƏLƏR KARTLA ÖDƏNİR?

Üçüncü səbəb isə əhalinin borclanması və paytaxtla region arasındakı disbalansla bağlı ola bilər. Həmsöhbətimiz qeyd edir ki, nağd vəsaitlərdən necə istifadə edilirdisə, indi “card to card” onu əvəzləyir. Üstəlik, bəzi kartlarda heç bir faiz tutulmaması insanların işini daha da rahatlaşdırır: “Regionlarda əhalinin gəlirliliyi arzuolunan səviyyədə deyil. Bəzən borc pul alır, bəzən də nisyə mal almağa üstünlük verirlər. Nisyə ödənişlər əksər vaxtlarda kartdan karta köçürülmələrlə ödənir. Yaxud kiminsə kiməsə borcu varsa, borcunu görüşüb vermir, kartına göndərir. Bundan əlavə, region sakinlərinin paytaxtdan aldıqları xidmətlər də var. Məsələn, pandemiyadan sonra onlayn kurslar kifayət qədər məşhurlaşıb. Təbii ki, onların da ödənişləri “card to card” ilə edilə bilər. Bu da əməliyyatlar üzrə həcmin artmasına gətirib çıxaran faktorlardandır”.

### “ÖDƏNİŞİ KARTA GÖNDƏRƏ BİLƏRSİNİZ?”

Maraqlıdır, “card to card” əməliyyatlarının məşhurlaşması vergidən yayınma hallarını stimullaşdırırmı?

Məlumdur ki, hökumət son zamanlar kölgə iqtisadiyyatının aradan qaldırılıb minimuma endirilməsi, dövriyyənin “ağardılması” üçün ciddi siyasət aparır. Bunun üçün müxtəlif üsullardan istifadə edilir. Qanunvericilik bazası təkmilləşdirilir, layihələr, tədbirlər həyata keçirilir, sərt qanunlar qəbul edilir. Yaxud vergi ödəyicilərinə nağdsız dövriyyələr nə qədər çox olarsa, o qədər vergi güzəştləri edilir. Həmçinin “ƏDV geri al” kimi layihələrlə nağdsız ödənişlər stimullaşdırılır. Nəticədə ölkədə əməliyyatların əksəriyyəti plastik kartlarla edilir, nağd puldan istifadə getdikcə azalır.






Pünhan Musayev

### BU TƏLƏB QANUNVERİCİLİYƏ ZİDDİR

Vergi mütəxəssisi Anar Bayramov deyir ki, aparılan “ağartma” siyasətinin nəticəsində bəzi sahibkarlar vergidən yayınmaq üçün alternativ yollara əl atırlar. Post-terminalların çalışmaması əsas istiqamətdir. Onun sözlərinə görə, ictimai iaşə obyektlərində, mağazalarda ödənişin post-terminalla deyil, kartdan karta köçürülmə vasitəsilə tələb edilməsi qanunvericiliyə ziddir: “Son zamanlar ictimai-iaşə, xidmət, hətta ticarət sahəsində belə, post-terminalla ödəniş etmək istədiyinizi qeyd etdikdə, sizə onun xarab olması barədə məlumat verilir. Dərhal “ödənişi karta göndərə bilərsiniz”, - deyə çıxış yolu təklif edilir. Halbuki post-terminal nasaz olduqda belə, dərhal nasazlığın aradan qaldırılması üçün addımlar atılmalıdır. Qanunvericilikdə nəzərdə tutulub ki, vergi ödəyicisi əhalidən ödəniş qəbul edərkən kassa çeki, qəbz təqdim etməlidir. Olmadığı təqdirdə onu cərimə, maliyyə sanksiyası gözləyir”.

## “CARD TO CARD” ƏMƏLİYYATINDA VERGİDƏN YAYINMA

Burada sual oluna bilər ki, axı kartdan karta əməliyyat edərkən qəbz təqdim olunur. Bəs bu zaman vergi ödəyicisi vergidən necə yayınır?

Mütəxəssis bildirir ki, əgər bütün ödənişlər post-terminal vasitəsilə olarsa, vergi ödəyicilərinin real dövriyyələri əks olunur. Hətta nağd ödənişdə belə, əgər kassa çeki təqdim olunursa, problem yaranmamalıdır: “Lakin təcrübədə var ki, vergi ödəyiciləri kassaların yaddaşını silir, kassa çeklərini ləğv edir və dövriyyəni gizlədirlər. Amma post-terminalla ödəniş etdikdə, onlar həmin satış məlumatını yaddaşdan silə bilmirlər. Çünki pul artıq satıcının bank hesabına oturur. Hətta bu gün həmin dövriyyəni gizlətsə, kassa çekini ləğv etsə belə, vergi orqanı tərəfindən aparılan yoxlamalar zamanı həmin bank məlumatları əldə edilir və real dövriyyə dəqiqləşdirilir. “Card to card” əməliyyatında qəbz təqdim edilsə belə, bu, nağd ödəniş kimi sayılır”.

### “ALICI PULU ÖDƏYİR, SATICI İSƏ DEYİR Kİ, PUL ÇATMAYIB”

Həmsöhbətimizin fikrincə, “card to card” əməliyyatlarında vətəndaş çətin vəziyyətdə qala bilər: “Restoranlarda, yaxud ticarət mərkəzlərində bu ödəniş növünün fəsadları ilə tez-tez rastlaşırıq. Məsələn, alıcı, yaxud istifadəçi kartdan karta köçürmə etdikdə, pul onun hesabından çıxır, lakin bir çox hallarda satıcının hesabına köçmür. Burada texniki səbəb də ola bilər. Yaxud rəqəmi səhv yazanda başqasının hesabına da otura bilər. Bu zaman ciddi problemlər yaranır. Alıcı pulu ödəyir, satıcı isə deyir ki, pul çatmayıb”.



Anar Bayramov

# 5800 NƏFƏR QEYRİ-İXTİSASLI MÜƏLLİM



Məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə götürülməsi ilə orada çalışan qeyri-ixtisas sahibi olanlar əvəzlənəcək. Tərbiyəçi-müəllimlər bütün tədris prosesinə cavabdeh olub, uşağın gün ərzində rejiminin yerinə yetirilməsinə, gəzintisinə nəzarət edəcəklər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Elm və Təhsil Nazirliyinin bu günlərdə məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu ilə bağlı elan etdiyi müsabiqə təhsilin ən başlanğıc pilləsində çalışanların fəaliyyətini bir növ müəyyənləşdirmək məqsədi daşıyır.

Amma cəmiyyətdə istər-istəməz tərbiyəçi-müəllim adı bir qədər çaşqınlıq yaradır. Hətta "məgər bütün müəllimlər tərbiyəçi deyilmi?" sualı da meydana çıxır. Tərbiyəçi-müəllimin təlim-tədris prosesində funksiyasının nədən ibarət olması, ümumiyyətlə, bu ixtisasın spesifikasının nədən ibarət olmasını aidiyyəti qurum və təhsil ekspertləri ilə aydınlaşdırmağa çalışdıq.

### VƏZİFƏ FUNKSİYALARINI YERİNƏ YETİRMƏK

"Təhsilverənlərin vəzifəsi məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, ixtisasını artırmaq, peşəkarlıq səviyyəsini yüksəltmək və attestasiyadan keçməkdir", - deyə Elm və Təhsil Nazirliyinin müvafiq şöbəsi mövzu ilə bağlı sorğumuzu cavablandırıb: "Təhsilverən təhsilalanların zəruri bilik və həyati bacarıqlara yiyələnməsini təmin etməli, məktəbəqədər təhsil müəssisəsinin daxili intizam qaydalarına əməl etməli və əmək müqaviləsində nəzərdə tutulan vəzifə funksiyalarını yerinə yetirməlidir". Həmçinin uşaqların təhlükəsizliyinin və sağlamlığının qorunması, onları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, uşaqların təlim-tərbiyəsi və inkişafı ilə bağlı valideynlərlə əməkdaşlıq etmək də onların vəzifələri sırasına daxildir".

### "TƏRBİYƏÇİ" SÖZÜNƏ "MÜƏLLİM" ƏLAVƏSİ

Azərbaycan Dövlət Pedaqoji Universitetin məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi Xalidə Həmidova "tərbiyəçi-müəllim"in vəzifəsindən danışaraq cəmiyyətdə çox vaxt "tərbiyəçi-müəllim"lə "müəllim", "tərbiyəçi" və "tərbiyəçi köməkçi" peşələrinin çaşqınlıq yaratdığını deyir: "Məktəbdə dərs deyən şəxs müəllimdir. Bağçada da müəllim funksiyasını aparan şəxsə müəllim deyilir. Sadəcə, 2017-ci ildə "Məktəbəqədər təhsil haqqında" qanuna olan dəyişikliyə əsasən, "tərbiyəçi" sözünə "müəllim" sözü də əlavə edildi və həmin şəxslər "tərbiyəçi-müəllim" adlandırıldı. Yəni bağçadakı müəllim tərbiyəçi-müəllimdir. O, bütün tədris prosesinə cavabdehdir. Uşağın gün ərzində rejiminin yerinə yetirilməsi, gəzintisi, məşğələlərin aparılması, planların yazılması, qrupun idarə olunması, oradakı bütün prosesi təşkil edən şəxsdir. Tərbiyəçi köməkçisi isə həmin tərbiyəçi-müəllimin köməkçisidir ki, uşaqların qayğısına qalmaq, onların gigiyenik tələblərini yerinə yetirmək, təmizlik işlərinə baxmaq, tədris prosesi vaxtı müəllimə dəstək olmaq onun vəzifəsidir".

X.Həmidova bildirir ki, qanunvericiliyə görə, "tərbiyəçi köməkçilər"in xüsusi bir təhsil almasına ehtiyac yoxdur. Yəni şəxsin tam orta təhsili varsa, bağçalarda tərbiyəçi köməkçisi vəzifəsində işləyə bilər: "Tərbiyəçi-müəllimlər isə mütləq ali məktəbdə və ya kollecdə məktəbəqədər təlim tədris ixtisasını bitirmiş olmalıdırlar".



Xalidə Həmidova



Nadir İsrafilov



## HƏKİMLƏR, KİMYAÇILAR VƏ DİGƏR PEŞƏ SAHİBLƏRİ

X.Həmidovanın sözlərinə görə, tərbiyəçi-müəllim peşəsinə indiyə qədər kütləvi şəkildə qeyri-ixtisas sahibləri - həkimlər, kimyaçılar və müxtəlif peşələri bitirən insanlar qəbul olunub: "Hazırda bağçalarda 5800 nəfər tərbiyəçi müəllim var ki, qeyri-ixtisas sahibidir. Bu da normanın düzgün olmadığını göstərir. Qanun isə tələb qoyur ki, bu vəzifədə yalnız məktəbəqədər təlim-tərbiyə ixtisasını bitirən şəxslər işləyə bilərlər. Elektron formada və imtahanla qəbul bu neqativ halların qarşısını alacaq. Bu da tədricən peşəkarların formalaşması və həmin səviyyədə işləməsinə gətirib çıxaracaq. Təbii ki, bu, daha keyfiyyətli tədris prosesinin aparılması ilə nəticələnəcək".

## BAĞÇALARIN KADR ÇATIŞMAZLIĞI PROBLEMİ

Təhsil eksperti Nadir İsrafilovun məsələyə yanaşması bir qədər fərqlidir. Məktəbəqədər tərbiyəni təməl hesab edən ekspertin fikrincə, bu bünövrə nə qədər yaxşı qoyulsa, məktəbdə də proses o qədər yaxşı gedər: "Sovet dönəmində məktəbəqədər tərbiyə anlayışı vardı. Biz də uşaqların tərbiyəsi ilə əyləncəli metodlarla, müxtəlif öyrətmə üsulları, oyunlarla məşğul olurduq. Sonra dünya təcrübəsinə istinad edib məktəbəqədər tərbiyəni məktəbəqədər təhsillə əvəz etdik. Biz də Yaponiyada, Sinqapurda mövcud olan erkən təhsilə cəlbolunma variantına əl atdıq. Yəni təhsili də bağçaların üzərinə yüklədik. Hazırda məktəblərdə məktəbəhazırlıq qrupları açılıb. Bir halda ki, məktəbəqədər təhsildən söhbət gedir, bu, bağçalarda olmalı idi. Amma bağçalarda yer məsələsi ilə bağlı qıtlıq yarandı. Çoxsaylı bağçaları kadrla təmin etmək mümkün deyildi. Belə qərara alındı ki, ali təhsilli ədəbiyyat, kimya, fizika, biologiya və s. müəllimlər də bağçalarda işlə təmin olunsunlar". N.İsrafilov qeyri-ixtisas sahiblərinin bağçalarda işləməsi ilə bağlı yaranan narazılıqları da xatırlayır: "Bir ara qeyri-ixtisaslıların işdən çıxarılması, əmək haqlarının differensiallaşması məsələsi gündəmə gəldi və böyük müzakirələrə səbəb oldu. Hətta bəzi ekspertlər "Finlandiyada bu vəzifəyə magistratura pilləsini bitirənləri götürürlər", - deyə fikirlərini bildirdilər. Amma məsələnin digər tərəfi də var: bağçada çalışan müəllim ali təhsilli ədəbiyyat və ya digər humanitar fənn müəllimidirsə və 20-30 il işləyibsə, onun işdən çıxarılması nə qədər düzgün yanaşmadır? Hesab edirəm ki, bu məsələlər kadr potensialı ilə bağlıdır. İndi məktəbəqədər hazırlıq müəllimlərinin sertifikasiyasının keçirilməsi məsələsi də nəzərdə tutulub". N.İsrafilov hesab edir ki, məktəbəqədər təhsildə kadr məsələsi tədricən qaydaya düşəcək: "Kadr potensialı artdıqca, məktəbəqədər təhsildə işləyən qeyri-ixtisaslılar təqaüdə çıxdıqca problem aradan qalxacaq".



# SOCAR və "Tatneft" arasında Yol Xəritəsi imzalanıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Rusiyanın "Tatneft" Publik Səhmdar Cəmiyyəti (PSC) şirkətləri arasında əməkdaşlığa dair Yol Xəritəsi imzalanıb.

"Report"un İqtisadiyyat Nazirliyinə istinadən verdiyi məlumata görə, əməkdaşlığa dair Yol Xəritəsi iqtisadiyyat naziri Mikayıl Cabbarov, SOCAR-ın prezidenti Rövşən Nəcəf və Rusiyanın Tatarıstan Respublikasının "Tatneft" PSC-nin baş direktoru Nail Maqanov arasında keçirilən görüş zamanı imzalanıb.

Yol Xəritəsini SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Tatneft" PSC-nin baş direktoru Nail Maqanov imzalayıblar.

Sənəd şirkətlər arasında neft hasilatı, emalı, neft və neft-kimya məhsullarının satışı, təcrübə mübadiləsi, insan kapitalının inkişafı və digər sahələr üzrə əməkdaşlığı nəzərdə tutur.

Görüşdə, həmçinin "Tatneft" PSC ilə əməkdaşlıq əlaqələrinin uğurlu inkişafından məmnunluq ifadə olunub. Müzakirələr zamanı şirkətlə əməkdaşlığın prioritet istiqamətləri və energetika sahəsində əməkdaşlıq imkanlarına baxılıb, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra nümayəndə heyətinin Şuşa şəhərinə səfəri təşkil olunub.

# Neft sektorundan vergi daxilolması azalır



Buna səbəb qaz qiymətlərinin azalması, əsas neft yatağımız olan "Azəri-Çıraq-Günəşli"də hasilatın azalmasıdır. Yaranmış boşluğun aradan qaldırılması üçün gələn il Dövlət Neft Fondundan büdcəyə transfertin miqdarı bir milyard manat artırılacaq.

"Gələn ilin dövlət büdcəsinin proqnozlarında neft sektorundan vergi daxilolmalarında iki dəfəyə qədər azalma gözlənildiyinə görə, ümumi vergi daxilolmalarında geriləmə olacaq". "Report" xəbər verir ki, bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Mədəniyyət komitələrinin birgə iclasında deyib. Onun sözlərinə görə, bu, dövlət büdcəsinin vacib məqamlarından biridir: "Biz maliyyə imkanlarımıza real olaraq baxmalıyıq. Cari ildə dövlət büdcəsində dürüstləşdirmə apardıqdan sonra, edilən dəyişikliklər nəzərə alınmaqla, 2024-cü ilin dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnozlarında azalma var. Neft sektorundan vergi daxilolmaları iki milyard manatdan artıq azalıb. Bu, bizi kifayət qədər narahat etməlidir".

**NEFT HASİLATIMIZ DA AZALIR**

Nazir deyib ki, azalmanın müəyyən səbəbləri var. Onlardan biri odur ki, cari ilin əvvəlində dünya miqyasında qaz qiymətləri kəskin surətdə artmışdı: "Yanvar-fevral aylarında hətta üç min ABŞ dolları olmuşdu. Şübhəsiz ki, Azərbaycan da bundan bəhrələnmişdi. Artıq cari ilin iyul ayında biz bu gəlirləri dövlət büdcəsində əks etdirdik. Gəlirlərin azalmasına təsir edən ikinci faktor neft hasilatının azalmasıdır. Biz bunları tam reallıqla dərk etməliyik. Bizim əsas neft yatağımız olan "Azəri-Çıraq-Günəşli"nin neçə illər ərzində istismarı nəticəsində ehtiyatları tədricən tükənir. Nəticədə hasilatımız azalır", - nazir bildirib.

**ENERJİ BAZARLARINDA MÜNBİT QİYMƏT KONYUKTURASI**

S.Şərifov vurğulayıb ki, dünya enerji bazarlarında hazırda olduqca müsbət münbit qiymət konyukturası mövcuddur. Bu nəzərə alınmaqla dövlət büdcəsində neftin qiyməti 60 ABŞ dolları nəzərdə tutulub. Nazir bildirib ki, neftin 10 ABŞ dolları bahalaşması dövlət büdcəsinin gəlirlərini təxminən 420 milyon manat artırıb: "Bu, Dövlət Neft Fondunun gəlirlərini daha da çoxaldıb. Bu gün dövlət büdcəsində neftin qiyməti 60 ABŞ dolları təşkil edir, beynəlxalq təşkilatların proqnozlarında təxminən 80 ABŞ dollarıdır. Söhbət təxminən 850 milyon manat əlavə gəlirdən gedir. Biz növbəti ilin vergi daxilolmalarını qiymətləndirsək, iki milyard 27 milyon manat neft sektoru üzrə kəsirimiz əmələ gəlir.



Lakin, Azərbaycan Dövlət Neft Şirkətinin vergi daxilolmaları gələn il cari illə müqayisədə 240 milyon manat çox olacaq".

**QEYRİ-NEFT SEKTORU ÜZRƏ DAXİLOLMALAR ARTIR**

Nazirin sözlərinə görə, dövlət büdcəsinə ən əsası qeyri-neft sektoru üzrə daxilolmalar əhəmiyyətli dərəcədə artır: "Bu sektordan daxilolmalar bir milyard manatdan yuxarıdır. Bunları da nəzərə almaqla bizim fərqimiz təxminən 850 milyon manat təşkil edir. Amma bizim qarşımızda proqramlar var və böyük vəzifələr qoyulub. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası, müdafiə qabiliyyətimizin gücləndirilməsi kimi çağırışlar var. Bu işlərin görülməsi üçün bizim xərclərimiz təxminən cari ilin səviyyəsində saxlanılıb. Yəni cüzi, 170 milyon manat artımdan söhbət gedir. Bunu təmin etmək üçün biz Dövlət Neft Fondundan dövlət büdcəsinə transferti gələn il cari illə müqayisədə bir milyard manat artırmaq məcburiyyətindəyik. Münbit müsbət qiymət konyukturası bizə imkan verir ki, büdcə qaydalarını pozmayaq, Dövlət Neft Fondunun vəsaitlərinin qalığını da saxlayaq".

# Bakcell Əhmədlidə yeni mağaza açdı

Ölkənin ən böyük özəl mobil operatoru olan Bakcell yeni mağazasını abunəçilərin ixtiyarına verib. Bununla birlikdə şirkət öz texnoloji yeniliklərini hər kəs üçün daha da yaxın etmək imkanı yaradıb.

Əhmədli metrostansiyasının yaxınlığında yerləşən yeni mağazada modern atmosfer, müasir standartlara cavab verən elektron növbə sistemi ilə yanaşı, abunəçilərin Bakcell-in məhsulları ilə yaxından tanış ola biləcəkləri elektron guşədə əməliyyatları sürətlə həyata keçirmək mümkün olacaq.

Mağazada premium zəng xidməti olan VoLTE-nin aktivləşdirilməsi, yeni nəsil sim texnologiyası – eSim satışı, tarif və sürətli internet paketlərinin aktivləşdirilməsi ilə yanaşı, 10 növdən çox xidmət təqdim olunur.

"Bakcell olaraq hər zaman innovasiyanın və rəqəmsallaşmanın gücünə inanmışıq. Əhmədli filialımız da bu gücü sizə daha yaxın etmək üçün bir vasitədir. Sərhədləri aşaraq innovativ yenilikləri sürətlə ölkənin hər nöqtəsinə çatdırmaq əsas hədəflərimizdən biridir." - deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib.

Ölkənin dörd bir yanında "Bakcell ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.



# SUBSİDİYALAR ARTIRILDI, BƏS MƏHSULDARLIQ?

Aqrar sahəyə ayrılan subsidiyaların məqsədi kənd təsərrüfatı məhsulları üzrə istehsal xərclərini tənzimləmək, fermerlərin gəlirini artırmaq, ərzaq məhsullarının qiymətlərini stabilləşdirmək və lazım olan qədər ərzaq məhsulları istehsalını təşviq etməkdir. Bəzi məhsullar var ki, onlara verilən subsidiya məbləğləri regionlar üzrə müəyyənləşib.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Aqrar Subsidiya Şurası 2024-cü il üçün subsidiya əmsallarını açıqlayıb. Qərara əsasən, çəltiyin əsas əkinlərinə görə əkin subsidiyası 360 manatdan 380 manata, yoncaya görə 50 manatdan 70 manata, giləmeyvələrə (2023-cü il sentyabrın 1-dən 2024-cü il mayın 31-dək salınan və damcı suvarma sistemi ilə təmin olunmuş kivi və moruq bağları, habelə 2022-ci ildən salınmış və damcı suvarma sistemi ilə təmin olunmuş kivi bağları istisna olmaqla) görə isə 230 manatdan 240 manata qədər artırılıb. Həmçinin, 2023-cü ilin məhsuluna görə fermerlərin tədarük məntəqələrinə təhvil verdikləri pambığın hər tonuna görə məhsul subsidiyasının 180 manatdan 190 manata, Virciniya sortu üzrə yaş tütünün hər tonuna isə 30 manatdan 34 manata qədər artırılması ilə bağlı qərar qəbul edilib. Bəs subsidiyalar üzrə əmsalların artırılması aqrar sahəyə necə təsir edəcək?

### STİMULLAŞDIRMA VƏ DAXİLİ TƏLƏBATIN ÖDƏNİLMƏSİ

Aqrar Kredit və İnkişaf Agentliyindən "Kaspi"yə verilən məlumata görə, ölkədə istehlak olunan düyünün böyük əksəriyyəti idxal hesabına təmin edilir. Çəltiyin istehsalı əsasən daxili tələbatın ödənilməsi baxımından əhəmiyyətlidir: "Bu baxımdan çəltikçiliyin stimullaşdırılması məqsədilə çəltik əkinlərinə görə verilən əkin subsidiyası 20 manat artırılıb".

Qurumdan bildirilir ki, son illər ölkədə yoncanın əkin sahələrinin azalması müşahidə olunurdu. Bu da heyvandarlıqda yem bazasının məhdudlaşması demək idi. Məhz bu baxımdan yem bitkilərinin əsasını təşkil edən yoncaya görə verilən əkin subsidiyası 20 manat artırılıb. Həmçinin ölkədə yerli istehsal daxili çay istehlakının cüzi hissəsini (təqribən 2 faizini) təşkil edir. Keçən il də çay plantasiyalarının məhsuldarlığı aşağı, yəni 12.2 s/ha olmuşdu. Bu baxımdan çayçılığın stimullaşdırılması məqsədilə çay plantasiyalarının salınmasına 12 min manat məbləğində əkin subsidiyası veriləcək.

### FERMERLƏRİN ƏKİNƏ OLAN MARAĞI ARTIR

Qurumdan verilən məlumata görə, pambığın subsidiyasının artırılması da pambıq istehsalında artan xərclərin kompensasiya edilməsi məqsədini daşıyır. Həmçinin, subsidiyanın artırılması fermerlərin əkinə olan marağını artırır, bu da məhsuldarlığa müsbət mənada təsir edir: "2024-cü ildə ölkədə ənənəvi meyvə bağlarında sudan qənaətlə istifadənin stimullaşdırılması məqsədilə damcı suvarma sistemi tətbiq edilən bağların bir hektarına görə əkin subsidiyası 250 manatdan 300 manata qədər artırılıb. Damcı ilə suvarma üsulu suvarma suyuna qənaətlə yanaşı, torpağın humus qatının qorunması, gübrələrin suvarma suyunun lokal şəkildə verilməsi, mineral gübrələrdən səmərəli istifadə baxımından da əhəmiyyətlidir. Bu üsuldan istifadə bağların məhsuldarlığının yüksəlməsinə səbəb olur".




### MƏHSULLARIN QİYMƏTİ STABİLLƏŞƏCƏK?

İqtisadçı ekspert Cəfər İbrahimli deyir ki, kənd təsərrüfatında subsidiyalar əsasən, aqrotexniki gübrə və digər məhsullara aqrotexniki xərcləmələr üçün verilir. Mütəxəssisin sözlərinə görə, bu da məhsuldarlığa müsbət təsir edir: "Aqrar sahəyə ayrılan subsidiyaların məqsədi kənd təsərrüfatı məhsulları üzrə istehsal xərclərini tənzimləmək, fermerlərin gəlirini artırmaq, ərzaq məhsullarının qiymətlərini stabilləşdirmək və lazım olan qədər ərzaq məhsulları istehsalını təşviq etməkdir. Bəzi məhsullar var ki, onlara verilən subsidiya məbləğləri regionlar üzrə müəyyənləşib. Çünki məhz həmin regionda məhsuldarlığın yüksək olması mümkündür. Buna görə də, o məhsullar ancaq o regionlar üzrə subsidiyalaşdırılır". Mütəxəssis bu qərarlardan sonra növbəti ildən məhsuldarlığın artacağını düşünür: "Subsidiyaların artırılması aqrar sahənin inkişafını stimullaşdırır. Ümumi vəziyyəti nəzərə alaraq, növbəti illərdə də kənd təsərrüfatının subsidiyalaşması davam edəcək. 2024-cü ildə də subsidiyaların faydalı sərf olunacağını və məhsuldarlığın artacağını düşünürəm".



Cəfər İbrahimli

## QEYRİ-NEFT SEKTORUNDA AQRAR SAHƏ XÜSUSİ ÖNƏM DAŞIYIR

Lənkəran Dövlət Universiteti "Aqrar və mühəndislik" fakültəsinin müəllimi Nahid Əzizli deyir ki, qeyri-neft sektorunda aqrar sahə xüsusi önəm daşıyır. Məhz bu sahəyə olan diqqət yaxın gələcəkdə qeyri-neft sektorunun inkişafına səbəb olacaq: "Aqrar sahənin inkişafını həmişə diqqətdə saxlayan dövlət başçısı İlham Əliyevin Kənd Təsərrüfatı məhsullarının istehsalının səmərəsini artırmaq, bu məhsulların istehsalçılarına dövlət tərəfindən maliyyə yardımı göstərilməsini təmin etmək məqsədilə verdiyi qərarlar sektorun ildən ilə böyüməsinə, istehsal göstəricilərinin davamlı olaraq yüksəldilməsinə təsir edir. Aqrar sahəyə dövlət dəstəyinin əsas aləti isə aqrar subsidiyalardır. Fermerlərin fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində dövlət daim dəstək göstərir".



Nahid Əzizli

### SUBSİDİYALARDAN NECƏ İSTİFADƏ ETMƏLİ?

Mütəxəssis vurğulayır ki, fermerlərə verilən əkin subsidiyasının 25 faizi nağd formada, 75 faizi isə nağdsız formada mineral gübrə, biohumus, pestisid, sertifikatlı toxum və ting alınmasına sərf edilə bilər: "Əkin subsidiyası fermerlərin qeyd edilən istehsal vasitələrinin alınması ilə bağlı xərclərinin bir hissəsini kompensasiya edir. Əkin əmsallarının artırılması fermerlərin qeyd edilən istehsal vasitələrinin alınması ilə bağlı xərclərinin əkin subsidiyası hesabına daha böyük hissəsini qarşılamağa imkan verir. Üstəlik, fermerlər onlara ayrılan, amma istifadə etmədikləri vəsaitləri həmin il ərzində aparılan növbəti əkinlər üçün də xərcləyə bilirlər. Subsidiyaların məbləğinin artırılması kənd təsərrüfatı ilə məşğul olan fermerlərin kənd təsərrüfatına olan marağını artırıb. Yaxın gələcəkdə də dövlət dəstəyinin davam etdirilməsi bu sahənin inkişafına təkan verəcək".

# YENİ GÜNƏŞLİNİN ABAD OLMAYAN HƏYƏTİ

**Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi, AB yaşayış massivindəki 8-ci binanın sakinləri bildiriblər ki, yaşadıqları binanın həyətində asfalt örtük təmirsiz vəziyyətdədir. Digər yaşayış binalarının həyətindən fərqli olaraq, bu binanın həyətində hər hansı abadlıq, quruculuq işləri, yaşıllaşdırma tədbirləri görülmür. Buradakı idman və uşaq əyləncə vasitələri olduqca primitiv, istismar müddəti başa çatmış, sınıb sıradan çıxmış vəziyyətdədir.**













RUFİK İSMAYILOV

Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi, AB yaşayış massivindəki 8-ci binanın bir qrup sakini redaksiyamıza müraciət edərək yaşadıqları binanın həyətindəki vəziyyətdən şikayətləniblər. Sakinlər bildiriblər ki, qeyd edilən ünvandakı binanın həyətində asfalt örtük təmirsizdir. Digər yaşayış binalarının həyətindən fərqli olaraq, bu binanın həyətində hər hansı abadlıq, quruculuq işləri, yaşıllaşdırma tədbirləri görülmür. Buradakı idman və uşaq əyləncə vasitələri olduqca primitiv, istismar müddəti başa çatmış, sınıb sıradan çıxmış vəziyyətdədir.

**CAVABSIZ QALAN MÜRACİƏTLƏR**

Sakinlər həyətdə oturacaq və söhbətgahların da müasir tələblər səviyyəsində olmadığını vurğulayıblar. Qeyd ediblər ki, həyətdəki boş, yararsız ərazi kimi saxlanılan hissələrdə müxtəlif idman qurğuları, uşaq əyləncə vasitələri, futbol və ya basketbol meydançaları quraşdırmaq mümkündür. Vətəndaşlar iddia edirlər ki, bununla əlaqədar dəfələrlə Suraxanı Rayon İcra Hakimiyyətinin yerli icra nümayəndəliyinə, bələdiyyəyə, mənzil istismar sahələrinə müraciət etsələr də, onların istəklərinə, təkliflərinə cavab verən olmayıb.

**"HƏYƏTƏ DÜŞƏNDƏ UŞAQ QALIR NAƏLAC..."**

Vətəndaşların müraciətini əsas tutaraq biz də həmin ünvanda olduq. Bina sakinlərin narazılığının və şikayətinin haqlı olduğunu yerində müşahidə etdik.

Beş yaşlı nəvəsini gəzintiyə çıxaran Bahar xanımla həmsöhbət olduq. O bildirdi ki, ətraf binaların həyətində abadlıq işləri aparılıb, uşaqlar üçün əyləncə meydançaları, müxtəlif növ əyləncə vasitələri quraşdırılıb. Lakin nə səbəbdənsə eyni rayonun tabeliyində olan bu binanın sakinləri üçün belə şərait yaradılmayıb: "Nəvəm körpədir. Onun da, elə özümüzün də hava almağa, gəzməyə ehtiyacı var. Bu səbəbdən gün ərzində nəvəmi bir neçə dəfə həyətə düşürür, açıq havada oynamasını, sağlam böyüməsini istəyirəm. Lakin həyətə düşəndə uşaq qalır naəlac. Bilmir nə ilə oynasın, nə ilə əylənsin. Asfalt örtük dağılıb deyə uşaq qaçanda ayağı ilişib yıxılır. Elə biz böyüklərin oturub dincəlməsi, asudə vaxtını səmərəli keçirməsi üçün də şərait yoxdur. Halbuki binanın həyətində ot-alaf basmış, az qala zibilxanaya çevrilmiş geniş ərazi var. Orada xudmani park salmaq, uşaq əyləncə vasitələri quraşdırmaq olar".

**BAXIMSIZ QALAN BOŞ ƏRAZİ**

Təqaüdçü Bəxtiyar Sədiyev də binanın həyətində gəzib-dolaşmaq, təbiətdən, yaşıllıqdan zövq alıb istirahət etmək üçün şərait olmamasından gileyləndi: "73 yaşım var, qoca babayam. Ömrümün böyük hissəsini bu binadakı mənzilimdə keçirmişəm. Ətraf ərazidə nə varsa hamısı gözlərim önündə baş verib. Arzu edirəm ki, nə vaxtsa quruculuq işləri bizim binanın həyətində də baş versin. Mənim indi nə gəzməyə gedəcək halım var, nə də imkanım. Ömrümün qalan hissəsini öz mənzilimdə, bir də binamızın həyətində gəzməklə keçirirəm. Gəzməsəm də olmur, ayaqlarım tutulur. Yaxşı olardı ki, binanın həyətində baxımsız əraziyə çevrilən yerdə kiçik bir park salınardı, ağaclar əkiləydi, söhbətgahlar, oturacaqlar quraşdırılardı. Biz də normal qaydada oturar, təmiz hava qəbul edər, yaşıllıqdan zövq alardıq. Burada uşaqların idmanla məşğul olması, sağlam böyüməsi üçün idman qurğuları quraşdırmaq, futbol və ya voleybol meydançası da yaratmaq olar. Nəvələrimiz, uşaqlarımız, gənclərimiz idmanla məşğul olar, zərərli vərdişlərdən kənar olardılar. Başqa istəyimiz, nigarançılığımız yoxdur".



## İCRA HAKİMİYYƏTİNİN ÖTÜR-ÖTÜR OYUNU

Vətəndaşların şikayətlərini həm ünvanına çatdırmaq, həm də aidiyyəti dövlət qurumunun mövqeyini öyrənmək üçün Suraxanı Rayon İcra Hakimiyyətinin email adresinə (mail@surakhani-ih.gov.az) cari ilin iyun ayının 23-də elektron qaydada sorğu göndərdik. İndiyə qədər ötən vaxt ərzində sorğumuz cavablandırılmadığı üçün icra hakimiyyətinin rəsmi saytında adları göstərilən məsul şəxslərlə əlaqə yaratmağa çalışdıq. Başçının birinci müavini Rəşad Hacıyevin xanım köməkçisi bizi dinlədikdən sonra mövzu ilə bağlı digər müavin Fuad Cəbrayılovla əlaqə saxlamağımızı tövsiyə etdi. F.Cəbrayılovun köməkçi isə məsələyə aydınlıq gətirilməsi üçün Suraxanı rayon təsərrüfat şöbəsinin müdiri Mehman Hüseynovla danışmağı tövsiyə etdi. Təəssüf ki, M.Hüseynovun xidməti telefon nömrəsinə etdiyimiz davamlı zənglər cavabsız qaldı. Nəticə etibarilə icra hakimiyyətinin məsul şəxsləri indiyə qədər vətəndaşlara münasibətdə sərgilədikləri laqeydliyi, ötür-ötür oyununu mediaya qarşı da nümayiş etdirdilər.

# BİŞİRİLMƏSİ ASAN, İSTİFADƏSİ RİSKLİ



Alıcılar yarımfabrikat, dondurulmuş məhsulların doğru saxlanılmasına diqqət etməlidirlər. Donu açılmış və bir neçə dəfə dondurulmuş məhsullarda mütləq deformasiya olur və alıcılar bunu məhsulun xarici görünüşündən anlaya bilərlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Havalar soyuyan kimi xəmir yeməklərə tələbat artır. Bu yeməklərin hazırlanması elə də asan başa gəlmir. Amma düşbərə, xəngəl, pelmeni kimi məhsulları marketdən hazır şəkildə alanlar da az deyil. Bu məhsullar marketlərdə yarımfabrikat şəkildə satılır. Aldıqdan sonra sadəcə suya atıb bişirmək qalır. Bəs bu qidalar nə dərəcədə təhlükəsizdir?

### MARKALANMA QANUNU TAM İCRA EDİLMİR

İstehsal meneceri Sayat Quliyeva deyir ki, mağazalarda yarımfabrikat kimi satılan qeyd edilən qidalara uzun müddət qalması üçün müxtəlif əlavələr edilir: "Hazır dondurulmuş xəmir, xəmirdən hazırlanmış məhsullar yerli istehsal və idxal məhsulları olaraq mövcuddur. Yağlı qat-qat xəmirlər, hazır pizzalar idxal, xəngəl, düşbərə, türk mantısı kimi qidalar isə yerli məhsullardır. İdxal olunan məhsullar daha uzun müddətlidir. Belə məhsulların uzun müddət (minimum bir il) qalması üçün təbii ki, konservantlardan, rənglərdən, dadlandırıcılardan istifadə edilir. Yerli istehsal olan məhsullar isə şəffaf paketlərdə qablaşdırılır və saxlanma müddəti 72 saatdan 3 aya qədər dəyişir. Markalanma qanunu tam icra edilmir və müşahidələr göstərir ki, bəzi hallarda istehsalçılar xəmirdə yumurta istifadəsini rənglərlə əvəzləyirlər".

### BU MƏHSULLAR TƏLƏB OLUNAN TEMPERATURDA SAXLANILMAZSA...

S.Quliyevanın sözlərinə görə, belə məhsullar keyfiyyətini tez itirə bildiyi üçün qida zəhərlənmələrinə səbəb ola bilər: "Bu məhsullar xüsusilə də tərkibində ət, göyərti, süd məhsulları və digər əlavələr olan məhsullardır. Eyni zamanda yarımfabrikat (tam emal edilməmiş) olaraq satışı həyata keçirilir və uzun saxlanma müddətinin olması məhsulların tərkibində qatqıların - yəni E qrupuna aid konservantların olmasını bildirir. Mikrobioloji olaraq riskli məhsullardır, mütləq mənfi dərəcədə saxlanılmalıdır. Əgər bu məhsullar tələb olunan temperaturda saxlanılmazsa, donu açılıbsa, yenidən dondurulması zamanı tərkibindəki fiziki-kimyəvi və mikrobioloji göstəricilər pozulur və məhsul keyfiyyətini itirir. Məhsulun təhlükəsizliyi daşınma, saxlanma zamanı nəzərə alınmazsa, nəticədə istehlakçılar keyfiyyətsiz məhsul əldə etmiş olurlar. Keyfiyyətini itirən bu tipli məhsullar qida zəhərlənməsinə gətirib çıxarır. Daimi istifadə zamanı tərkibindəki konservantlara görə də törəmə xəstəliklərin yaranması qaçılmazdır".



Sayat Quliyeva



Ağa Salamov

## MƏLUMAT HİSSƏSİNDƏ NƏLƏRƏ DİQQƏT ETMƏLİ?







İstehsal menecerinin fikrincə, məhsulun üzərində bütün detallar aydın şəkildə qeyd olunmalıdır: "Bu tipli yarımfabrikat dondurulmuş məhsulların doğru saxlanılmasına diqqət etməlidirlər. Donu açılmış və bir neçə dəfə dondurulmuş məhsullarda mütləq deformasiya olur və alıcılar bunu məhsulun xarici görünüşündən anlaya bilərlər. Məhsulun qablaşdırılmasında qeyd edilən məlumatlara tərkibi, tərkibindəki əlavələrin, xüsusilə də ətlərin mənşəyi, saxlanma müddəti, hansı kateqoriyadan olan istehlakçıların istifadə edə bilmələri, hazırlanma qaydası və sair daxildir".

### İSTEHSAL ÜÇÜN UYĞUNLUQ SERTİFİKATI OLMALIDIR

Qida məsələləri üzrə ekspert Ağa Salamov bildirdi ki, belə məhsulları istehsal edənlər bəzi nüansları nəzərə almalıdırlar: "Ümumiyyətlə, marketlərdə satılan düşbərə, xəngəl, pelmeni və digər ətdən hazırlanan xəmir yeməklərinin birinci növbədə mənşəyi məlum olmalıdır. Yəni market bilməlidir ki, bu məhsulu kimdən alır və aldığı adamda da istehsal üçün uyğunluq sertifikatı olmalıdır. Bilinməlidir ki, məhsullar tam təhlükəsiz yerdə istehsal edilir, istehsal zamanı sanitar-gigiyena qaydalarına əməl olunur. Məhsulun istehsal və son istifadə tarixi üzərində yazılmalıdır. Saxlanmasında, daşınmasında, soyuq qida zəncirində qırılma olmamalıdır. Ətin mənşəyi də yoxlanılmalıdır".

A.Salamovun sözlərinə görə, əgər məhsullar evdə hazırlanırsa, daha çox təhlükəli olma ehtimalı var: "Evdə hazırlananlar ona görə təhlükəlidir ki, şəraitsizlik ola bilər. Bu halda satışa çıxarılan məhsul kütləvi zəhərlənməyə gətirib çıxaracaq. Evdə məhsul hazırlayır, amma sertifikatı yoxdur. Bu, təhlükəlidir. Çünki bilinmir, məhsulu hazırlayan insanın təmizliyi necədir. İstehsalat prosesində işçilər altı ayda bir dəfə həkim yoxlanışından keçirlər. Ondan sonra fəaliyyətlərini davam etdirə bilirlər. Amma ev şəraitində bu, belə deyil".

## BU CÜR MƏHSULLAR MAL ƏTİNDƏN HAZIRLANIR

Ekspert məsləhət görür ki, məhsulu keyfiyyətli ətdən hazırlasınlar: "Təbii ki, dana əti mal ətindən daha bahadır. Ona görə də, çox vaxt bu cür məhsullar mal ətindən hazırlanır və istehsal xərci də daha aşağı olur".

A.Salamov deyir ki, məhsulun üzərində bütün məlumatlar açıq qeyd olunmalıdır: "İnsanların diqqət etməli olduğu məsələ əmtəə nişanıdır. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən təsdiqlənmiş əmtəə nişanı mütləq olmalıdır. Kiçik istehsalatlarda da hər hansı markanı yaradırlarsa, onun da əmtəə nişanı olmalıdır".



### XƏMİRLƏR BİR-BİRİNƏ YAPIŞIBSA...

Müsahibimizin fikrincə, bu məhsulları alarkən görünüşünə diqqət etmək lazımdır: "Son istehsal tarixi yoxdursa, inqrediyentlər qeyd edilməyibsə, əmtəə nişanı yoxdursa, bu məhsullardan uzaq durmaq lazımdır. Çünki belə məhsulların uyğunluq sertifikatının olmamaq ehtimalı daha yüksəkdir. Bu da qida zəhərlənmələrinə gətirib çıxara bilər. Bu məhsullar quru halda olmalıdır. Quru halda deyil, bir-birinə yapışıbsa, deməli soyuducudan kənarda qalıb. Yəni saxlama şəraiti düzgün olmayıb ki, xəmir bir-birinə yapışıb".

## UŞAQLARIN SAĞLAMLIĞINA CİDDİ TƏHLÜKƏ YARADAN FAKTOR

# Göbələk yaradan SU QABLARI



Məhsul sanitariya nəzarətindən kənarda qalarsa, saxlanma şəraiti pozularsa, yararlılıq müddəti keçərsə, həmin su qablarının istifadəsinə icazə verilməməlidir. Əks təqdirdə, uşaqlar üçün ciddi fəsadlar və valideynlər üçün əsaslı problemlər yarana bilər.



KÖNÜL CƏFƏRLİ

Mağazalarda uşaqlar üçün satılan su qablarının keyfiyyəti ilə bağlı son günlər ciddi müzakirələr aparılır. Hətta deputatlar belə, məsələnin ciddi şəkildə araşdırılmasını tələb edirlər.

**DİQQƏTDƏN KƏNARDA QALAN MƏSƏLƏ**

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclasında deputat Naqif Həmzəyev bu məsələyə toxunaraq satışda uşaqlar üçün nəzərdə tutulan su qablarının keyfiyyətsiz olduğunu iddia edib. O deyib ki, müxtəlif yerlərdə şagirdlər üçün satılan su qablarını özü alıb və yoxlayıb. Deputatın fikrincə, satışda çox keyfiyyətsiz su qabları var: “Buna ümumiyyətlə nəzarət olunmur. Bir neçəsini aldım, içərisində su saxladım, üç gündən sonra qoxu yaranır və ya orada göbələklər əmələ gəlir. Biz diqqətimizi polietilen torbaya yönəltmişik, amma böyük problem olan su qablarının monitorinqi də aparılmalıdır. Ciddi nəzarət mexanizmi qurulmalıdır ki, uşaqlarımızı zəhərləməyək. Əks təqdirdə, uşaqlarımız başqa xəstəliklərə yoluxacaqlar”.

Bəs ölkədə su qablarının standartlara cavab verib-vermədiyinə, sağlamlıq üçün təhlükə yaradıb-yaratmadığına dair standartlar varmı? “Kaspi” bu məsələni araşdırıb.

**HƏMİN MƏHSULLAR YOXLANILIR, GİGİYENİK SERTİFİKAT VERİLİR**

Mövzu ilə əlaqədar Səhiyyə Nazirliyinin Respublika Sanitar Karantin Mərkəzindən bildirilib ki, ölkəyə idxal olunan, hazırlandığı materialdan asılı olmayaraq, uşaqların istifadəsi üçün nəzərdə tutulan su qablarının dövlət gigiyena qeydiyyatına alınması digər məhsullar kimi, müvafiq qanunvericilik aktlarına uyğun qaydada hüquqi və fiziki şəxslərin “Respublika Sanitariya-Karantin Mərkəzi”nə rəsmi müraciətləri əsasında həyata keçirilir: “Belə ki, müraciət zamanı məhsulu müşayiət edən sənədlər araşdırılır, götürülmüş nümunələr müayinə olunmaq üçün laboratoriyaya göndərilir. Müayinələrin nəticələri sanitariya norma və qaydalarının tələblərinə cavab verərsə, həmin məhsul dövlət gigiyena qeydiyyatına alınır və ona gigiyenik sertifikat verilir. Bu cür məhsullar uşaqların istifadəsi üçün təhlükəsiz hesab edilir. Digər məhsullar kimi su qablarının da satış yerlərində ətraf mühitin və kənar amillərin təsiri nəticəsində saxlanma şəraiti pozula, nəticədə məhsullar istifadə üçün yararsız vəziyyətə düşə bilər. Ona görə də, bu cür məhsulların saxlanma şəraitinə düzgün və ciddi əməl edilməlidir, eyni zamanda, yararlılıq müddətinə diqqət yetirilməlidir. Bütün qeyd olunanlarla yanaşı, bilməliyik ki, məhsulların istifadə üçün yararlı olması yalnız laborator müayinələrlə təsdiqlənir”.

## UŞAQLAR ZƏHƏRLƏNƏ BİLƏRLƏR

Mərkəzdən o da bildirilib ki, hazırlandığı materialdan (plastik, metal, şüşə, keramik və s.) asılı olmayaraq, laborator müayinələr zamanı aşkar olunan kimyəvi maddə və elementlərin miqdarı yol verilən normada olmalıdır: “Kimyəvi maddə və elementlərin miqdarı yol verilən normadan həddindən artıq olarsa, yəni sanitariya norma və qaydalarının tələblərinə cavab verməzsə və yaxud məhsul sanitariya nəzarətindən kənarda qalarsa, saxlanma şəraiti pozularsa, yararlılıq müddəti keçmişsə, həmin su qablarının istifadəsinə icazə verilməməli və aidiyyəti tədbirlər görülməlidir. Əks təqdirdə, uşaqlar üçün ciddi fəsadlar və valideynlər üçün böyük problemlər yarana bilər. Belə ki, uşaqlarda zəhərlənmə halları baş verə bilər, qaraciyər, böyrək və mədə-bağırsaq sistemində müxtəlif patologiyaların yaranmasına səbəb olar”.



Əlavə edilib ki, son illər hüquqi və fiziki şəxslərin müraciətləri zamanı sanitariya norma və qaydalarının tələblərinə cavab verməyən idxal olunan su qabları aşkar edilməyib.

İstehlakçılar su qabları alarkən onların keyfiyyət və təhlükəsizliyi baxımından şübhələri yaranarsa, Respublika Sanitariya - Karantin Mərkəzinə müayinələrin aparılması üçün müraciət edə bilərlər”.

## BU SAHƏDƏ NƏZARƏT MEXANİZMİ ZƏİFDİR



Eyyub Hüseynov

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, su qablarından pis qoxu gəlməsinin səbəblərindən biri uşaqların onlardan istifadə edərkən tüpürcək yolu ilə daxil olan bakteriyalardır: “Lakin su qabları yeni alınanda da kəskin qoxu gəldiyinə dair şikayətlər alırıq. Nazirlər Kabinetinin təhlükəsizliyi təmin edilən mallarla bağlı 343 saylı qərarı olub. Təəssüf ki, bu qərar 2021-ci ildə ləğv edilib. Bu səbəbdən də, buna nəzarət yoxdur. Bu gün həmin məhsullar istehsalçının adi kağız qeydləri ilə ölkənin əmtəə bazarına satışa buraxılır. Deməк olar ki, heç bir yerdə yoxlamadan keçməyən bu kimi malların başqa növləri də var. Əmtəə bazarında bu kimi malların çox olması ölkədə istehlakçı hüququnun zəifliyinin göstəricisidir. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanun 1995-ci ildə qəbul olunub və artıq köhnəlib. Bu işlərə nəzarət edən dövlət orqanları çox zəif işləyirlər. Vətəndaşlar belə malları alan zaman qoxlasınlar, kəskin qoxu gələn məhsulları almasınlar. Azad bazar iqtisadiyyatıdır, dünyanın hər yerindən hər cür mallar gətirilir. Lakin təəssüf ki, bu mallar kiçikyaşlı istehlakçıların sağlamlığına ziyan vura bilər”.

# SƏSYAZMA STUDİYASI AXTARIŞINDA



Ölkədə maddi-texniki bazası yüksək olan, peşəkar səs rejissorları, təhsil almış musiqişünasların çalışdığı səsyazma studiyasına böyük ehtiyac var. Amma təəssüf ki, hazırda bu standartlarla çalışan səsyazma studiyaları yoxdur.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bakıda keçirilən Musiqi Forumu bu sahədəki mövcud problemlərin gündəmə gəlməsi ilə yadda qaldı. Ölkədəki musiqi studiyalarının vəziyyəti bu problemlərdən biri oldu. Azərbaycan Milli Konservatoriyasının rektoru Siyavuş Kəriminin "Azərbaycan himni İngiltərədə yazılıb. O üç dəqiqəlik səsyazmaya görə Azərbaycan İngiltərəyə 200 000 funt sterlinq pul ödəyib. Məgər Azərbaycanda lazımi studiya yaradıb onu burada etmək olmaz? Biz studiyasız heç yerə çıxa bilmərik, bilməyəcəyik" sözləri, əslində, bu sahənin əhatə etdiyi, ayrı vaxt fikirlərini çatdırmaq üçün platforma tapa bilməyən çoxsaylı insanların ürəyindən xəbər verdi.

Əlbəttə, söhbət hazırda hər tində fəaliyyət göstərən həvəskar səsyazma studiyalarından deyil, peşəkar musiqi studiyasından gedir. Vaxtilə bizim tanınmış sənətkarların işlədiyi və dünyaya səs salan əsərlərin yazıldığı belə studiyamız olub. Söhbət Fioletov-9 ünvanında yerləşən və AzTV-nin Səsyazma Evi kimi tanınan studiyadan gedir. Bu studiya musiqiçilər arasında daha çox "Fioletov studiyası" kimi məşhurdur.

1926-cı ildə Radio Komitəsinin fəaliyyətə başladığı həmin ünvanda 1931-ci ildə Azərbaycanın peşəkar musiqisinin banisi Üzeyir Hacıbəylinin təşəbbüsü ilə şərqdə ilk notlu xalq çalğı alətləri orkestri və indiki Niyazi adına simfonik orkestri yaradılıb. Səsyazma Evində Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri, Əhsən Dadaşov adına "Xatirə" xalq çalğı alətləri ansamblı, Cahangir Cahangirov adına xor, Niyazi adına Dövlət simfonik orkestri, Vaqif Mustafazadə adına "Sevil" vokal-instrumental ansamblı, "Qaytağı" instrumental ansamblı, Uşaq Musiqili Teatrı, Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblı və s. kollektivlər fəaliyyət göstərib.

## QIZIL FONDA GEDƏN MAHNI VƏ ƏSƏRLƏR

Vaxtilə studiyanın direktoru işləmiş Xalq artisti Mübariz Tağıyev təəssüf hissi ilə səsyazma studiyasının fəaliyyətini dayandırdığını bildirdi: "Qızıl Fonda gedən mahnı və əsərlərin hamısı o studiyada yazılırdı. Görkəmli sənətkarlar, musiqiçilər o studiya ilə əlaqəli çalışırdı. İndi studiya fəaliyyətini faktiki olaraq dayandırıb. Ola bilər nə üçünsə işləyir, amma daha o səviyyədə deyil. Studiyada çalışan kollektivlər Mədəniyyət Nazirliyinin tabeliyinə verilib".

M.Tağıyev bildirir ki, özünə mahnı yazdırmaq lazım olanda dostlarının studiyasına üz tutur: "Studiyalar çoxdur, amma müasir tutumlu, yüksək standartlara uyğun gələni yoxdur. Yaqin, müəyyən müddətdən sonra bu haqda düşünəcəklər".

## BAZANI GÜCLƏNDİRMƏYƏ EHTİYAC VAR

Bəstəkar Nazim Quliyev də ölkədəki səsyazma studiyalarının qənaətbəxş vəziyyətdə olmadığını təsdiqləyir: "Səsyazma studiyaları müasir olmalıdır. İndi texnika inkişaf edir. Bizdə o səviyyədə səsyazma studiyaları yoxdur".

N.Quliyev xatırlayır ki, əvvəllər "Fioletov studiyası"nda səs rejissorları kimi bəstəkarlar çalışıb: "Sonradan onlar hansı səbəbdənsə uzaqlaşdılar. Onlar yüksək səviyyədə yazılan əsərlər təqdim edirdilər. İndi orada lazım olan avadanlıq yoxdur. Son illər televiziyanın Xalq çalğı alətləri və Simfonik orkestri, Xor Kapellası Mədəniyyət Nazirliyinin balansına verilib. Bu kollektivlər televiziyanın tabeliyində olanda tez-tez çıxış edir, yeni əsərlərini səsləndirirdilər. Bu kollektivlərin nazirliyin tabeliyinə verilməsi nə qədər düzgündür? Onsuz da nazirliyin eyni kollektivləri vardı. O kollektivlərdə ştat vahidi azaldıldı, halbuki artırmaq lazım idi. Bu kollektivləri dahi Üzeyir bəy yaradıb. Buna diqqət vermək lazım idi". Bəstəkarın fikrincə, ölkədə maddi-texniki bazası yüksək olan, peşəkar səs rejissorları, təhsil almış musiqişünasların çalışdığı səsyazma studiyasına böyük ehtiyac var: "Həmçinin studiyanın Bədii Şurası olmalı, yazılan əsərlərin keyfiyyətinə və kadr seçiminə nəzarət etməlidir".

Bəstəkar oxşar problemin Dövlət Filarmoniyasının səsyazma studiyasında da mövcud olduğunu bildirir: "Mən 2000-ci illərdə Filarmoniyada işləyəndə yeni avadanlıqlar alınmışdı. Amma indi müasir avadanlıqlar yaranıb. Onları da dəyişmək lazımdır".

Bəstəkar son illər yazdığı "Naxçıvan şikəstəsi", "İrəvan şikəstəsi" və "Xocalı şikəstəsi"ni Filarmoniyada yazdırıb: "O əsərlərə qulaq assanız, səslənmənin necə olduğunu hiss edərsiniz. Hesab edirəm ki, dövlətin balansında olan səsyazma studiyalarının bazasını gücləndirmək lazımdır".

## BEŞİNCİ DƏRƏCƏLİ İŞ?

Ali dərəcəli səs rejissoru Məmmədağa Dadaşov uzun illər "Fioletov studiyası"nda çalışıb. İndi təqaüddədir: "Studiyanın yerləşdiyi bina Azərbaycan Televiziyasının yox, Bakı Şəhər İcra hakimiyyətinin balansında idi. Ona görə o zamankı AzTV rəhbərliyi binanın təmirinə diqqət göstərmirdi. Bina uçulub tökülürdü, yeni avadanlıqlar verilmirdi. Lentlə yazırdıq. Sonra Ramin Qasımov rəhbər təyin olundu. O da nəsə etmək istəyirdi. Öz hesabına kompüter avadanlığı aldı. Ancaq bunlar kustar üsullar idi. Sonradan bir çox kollektivləri, həmçinin orkestrin üzvlərini ixtisar etdilər. Xor və ya simfonik orkestr nəyə lazımdır?" - deyə ixtisarlar başladı. Mən təqaüdə çıxdım. Daha sonra çoxu işdən çıxdı, ixtisarlar oldu. Beləcə studiya dağıldı. Bizdə həmişə səsyazma studiyasına beşinci dərəcəli iş kimi baxıblar".

Rejissorun sözlərinə görə, hazırda AzTV-nin nəzdində fəaliyyət göstərən səsyazma studiyası böyük orkestrin, xorun əsərlərini yazmaq üçün deyil: "Böyük həcmli əsərləri balaca otaqda yazmaq olmaz. İndi studiyalar çoxdur, hamısı da bir otaqlı evlərdir. Birini studiya edirlər, birində də avadanlıq qoyurlar. 40-60 nəfərlik kollektivin ifasını harada yazmaq olar? Bu işi ancaq dövlət studiyası yerinə yetirə bilər".



Mübariz Tağıyev
Siyavuş Kərimi
Nazim Quliyev

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
4 NOYABR ŞƏNBƏ 2023
www.kaspi.az

Bellinqem

Bəzi mütəxəssislər Cud Bellinqemi oyun stilinə görə əfsanəvi Zidanla müqayisə edirlər. Bellinqem də Zidan kimi beş nömrəli formanı geyinir. Rəqəmlərə görə isə Bellinqem artıq indidən fransız ulduzdan daha effektiv olmağı bacarır.




# “REAL”IN YENİ TAPINTISI

Avropada bu mövsüm diqqətləri üzərinə ən çox cəlb edən futbolçu Cud Bellinqemdir. “Real Madrid”in formasını geyinən orta xətt oyunçusu yeni transfer olunduğu komandaya çox tez adaptasiya oluna bildi. İlk vaxtlardan göstərdiyi oyunla keyfiyyətini nümayiş etdirən gənc ingilis hazırda komandasının liderlərindən biridir.

### REKORDLARLA ZƏNGİN İLK İLLƏR

Cud İngiltərənin “Birminqem” klubunun akademiyasının məzunudur. O, çox tez - 16 yaşında klubun əsas komandasına cəlb olunub. Bu göstərici ilə klubun tarixində meydana çıxan ən gənc oyunçu rekorduna sahib çıxıb. O, hətta debüt matçında komandasının ən yaxşı oyunçusu adına da layiq görülüb.

Bellinqem ilk vaxtlar sol cinahda çıxış edib. Daha sonra məşqçilər futbolçunun meydanın mərkəzində özünü daha rahat hiss etdiyinin fərqinə varıblar. Mütəxəssis Pep Klotet isə Bellinqemin daha fərqli cəhətlərini kəşf edib. O düşünürdü ki, Cud hücumda komandaya daha çox fayda verə bilər. Hücumameyilli yarımmüdafiəçi kimi uğurlu oyunlar keçirən futbolçu dəyərini dəfələrlə artırmağı bacarır. Artıq 2019-cu ildə “Mançester Yunayted” onu radarına alır. Lakin transfer çalışmaları klubların maliyyə məsələlərində ortaq məxrəc əldə edə bilməməsi səbəbindən baş tutmur.

2020-ci ildə isə “Birminqem” futbolçunu saxlamağı bacarmır. Bu dəfə “Borussiya Dortmund”un təklifindən imtina etmək mümkün olmur. Alman klubu futbolçu üçün qarşı tərəfə 30 milyon avrodan artıq məbləğ ödəyir. Bu, növbəti rekord olur: Bellinqem tarixin ən bahalı 17 yaşlı futbolçusu ünvanına sahiblənir.

Cud Dortmund təmsilçisində ilk matçındaca fərqlənərək klubun heyətində qol vuran ən gənc oyunçu adına yiyələnir. 17 yaş 113 günlüyündə Çempionlar Liqası matçında meydana çıxan Bellinqem Fil Fodeni geridə qoyaraq turnirdə oynamağa müvəffəq olmuş ən gənc ingilis olub. Mövsümün sonunda isə o, Bundesliqada ilin ən yaxşı debütantı seçilir.

İlk mövsümündə “Borussiya”nın əsas heyət oyunçusuna çevrilən Bellinqem ikinci mövsüm də yüksək performansını davam etdirir. O, Bundesliqada ümumilikdə 92 matçda 12 qol vurub və 16 məhsuldar ötürmə edib. Eyni zamanda, Çempionlar Liqasında yüksək performans sərgiləyən futbolçu “Real Madrid”in diqqətini çəkir.



Pep Klotet



## KRİŞTİANU RONALDUDAN DAHA YAXŞI START

Yayda Kərim Benzemanın komandadan gedişi və “Real Madrid”in hücum xəttinə yalnız yaşlı Xoselunu transfer etməsi azarkeşlər tərəfindən birmənalı qarşılanmamışdı. Hesab olunurdu ki, komanda irəli xətdə təkcə Vinisius Junior və Rodriqonun ümidinə qalacaq.

Çətin vəziyyətdə “kral klubu”nun dadına Bellinqem yetişdi. O, göstərdiyi performansla hətta klubun əfsanəsi Kriştianu Ronaldu ilə müqayisə olunur. Bəzi nəticələri isə hətta portuqaliyalıdan daha yaxşıdır.

Bellinqem “Real Madrid”in heyətində həm La Liqada, həm Çempionlar Liqasında debüt oyununda qol vurmağı bacaran azsaylı futbolçulardan biridir. Ümumilikdə o, komandada ilk dörd matçını qolla tamamlayıb. Bu da futbolçunu Kriştianu Ronaldu ilə eyni tərəziyə qoyur. Hər iki futbolçu La Liqa və Çempionlar Liqasında ilk iki matçda qol vurmağı bacarıb. Lakin qitənin bir nömrəli klub turnirində üçüncü oyununda da fərqlənə bilməsi Bellinqemi Ronaldudan da üstün edir. XXI əsrdə heç bir “Real Madrid” futbolçusu bunu bacara bilməyib. İlk 10 liqa oyununda 10 qol vuran Bellinqem bu göstəricidə də Ronaldunu üstələyir. Kriştianu debüt mövsümündə 10 çempionat matçında yeddi dəfə fərqlənə bilmişdi. 20 yaşlı futbolçu “kral klubu”nda ilk 13 oyunda 13 qol vurub. Gənc futbolçunun “El-Klassiko”da “Barselona” qarşısında performansı isə “Real Madrid” karyerasında hələlik ən yüksək mövqedədir. Öncə uzaq məsafədən vurduğu möhtəşəm qolla hesabda tarazlıq yaradan yarımmüdafiəçi, son dəqiqələrdə qələbə topunun da müəllifi oldu.

Bəzi mütəxəssislər oyun stilinə görə futbolçunu klubun daha bir əfsanəsi Zidanla müqayisə edirlər. Bellinqem Zidan kimi beş nömrəli formanı geyinir. O, müsahibələrində bunu özü üçün böyük şərəf hesab etdiyini deyib. Rəqəmlərə görə isə Bellinqem artıq indidən Zidandan daha effektiv olmağı bacarır.

## QAZANILAN VƏ GÖZLƏNİLƏN MÜKAFATLAR

Bellinqem “Qızıl top”un təqdimetmə mərasimində ilin ən yaxşı gənc oyunçusuna verilən “Kopa Trophy”yə layiq görülüb. 20 yaşlı futbolçunun ilin sonunda dünyanın ən yaxşı gənc istedadı kimi “Qızıl Oğlan” mükafatını da alacağı gözlənilir. Eyni zamanda bu performansı davam etdirəcəyi təqdirdə Bellinqemin “Qızıl top”a namizədlər sırasında olması istisna edilmir. İngilis azarkeşlər tezliklə onun İngiltərə millisinin əsas lideri olacağına və yığmanın uzun illərdir həsrətində olduğu kuboklara yetişəcəyinə ümid edirlər. Bellinqem böyük uğurlar əldə etmək üçün hər şeyə sahibdir.